AĞAVERDİ NƏSİROV
(AĞA AQİL)

MÜHARİBƏ VƏ MƏHƏBBƏT

BAKI - 2022

Redaktor: **Balayar SADİQ**
AYB-nin və AJB-nin üzvü, YURD ədəbi-bədii, elmi-publisistik jurnalının baş redaktoru, "Qızıl qələm" mükafatı və beynəlxalq Rəsul Rza mükafatı laureatı

Ağaverdi Nəsirov (Ağa Aqil).
Müharibə və məhəbbət.
Bakı, "Gənclik" nəşriyyatı, 2022, 160 səh.

Bu kitab şairin oxucularla dördüncü görüşüdür. Kitab "Zəfər duyğuları", "İkinci qarabağ müharibəsindən öncə yazılanlar" və "Poemalar" başlıqları altında toplanan üç bölmədən ibarətdir. Şairin birinci bölmədə II Qarabağ Müharibəsindən sonra əsasən zəfərimizi, ordumuzu tərənnüm edən şeirləri, ikinci bölmədə məhəbbət mövzusunda və müxtəlif səpkili şeirləri, üçüncü bölmədə isə poemaları yer tutur. İnanırıq ki, vətənpərvər şairin bu kitabda təqdim olunan şeir nümunələri oxucularının marağına səbəb olacaqdır.

ISBN 978-9952-81-4

Kitabın istifadəsiylə bağlı bütün müstəsna hüquqlar müəllifə məxsusdur.

© Ağaverdi Nəsirov, 2022

ŞAİR DÜNYASI
(ÖN SÖZ ƏVƏZİ)

Beşikdən məzara başlanır adam,
Öyrənə-öyrənə yaşlanır adam.
Dərdi çox, səri az, yaş yanır adam,
O, insandır.

A.Nəsirov

Hər ömür bir hekayədir.Hər insan öz ömür hekayəsini yazarsa, ən maraqlı romanlar alınar bəlkə.Bu hekayələr oxucu üçün bir məktəbdir, hərə bir cür yararlanır oxuduğu və eşitdiyi həyat hekayələrindən, hər kəsin təsəvvüründə bir film kimi göz önünə gələr insan taleləri ilə bağlı epizodlar.

Onun həyat hekayəsi cənnət Qarabağımızdan, onun qəhrəmanlar oylağı sayılan Qubadlının Xanlıq kəndindən başlamışdı.

Mən onun yaradıcılığı ilə ilk dəfə həmmüəllifi olduğum «Xəyallarda görüşək» antologiyasına daxil ediləcək şeirlərini nəşrə hazırlayan zaman tanış oldum.Üzünü görmədiyim, həyatından və düşüncələrindən xəbərsiz olduğum şairin daxili aləmini yazdığı şeirlər o qədər mükəmməlcə təsvir edirdi ki... əksər şeirləri Vətən nisgillərindən, Vətən həsrətlərindən ibarət olan şair uzun illər boyunca uzaq düşdüyü, erməni işğalı altında olan əsir yurdunun insanlarını, torpağını, dağ-daşını, düzünü, yal-yamacını, ümumiyyətlə, hər qarışını ürək yanğısıyla tanıdırdı oxucusuna.Söz danışmaqda xəsislik etdiyini, hər kəlməsini yüz ölçüb bir biçdiyini də elə o zaman hiss etmişdim.

1955-ci il, yanvar ayının 10-da Qubadlı rayonunun Kürd

Mahrızlı kəndində Dadaş və Səkinə adlı cütlüyün üçüncü övladı olaraq dünyaya göz açıb yazımın qəhrəmanı.Atası və anası onun dünyaya gəlişini uzun illər, bacısı Tavat və qardaşı Xudaverdi isə çox böyük səbirsizliklə gözləyirdilər, çünki o, bacısından və qardaşından təxminən 13-14 il sonra doğulmuş və bütün ailənin sevimlisinə çevrilmişdi.Həyatı anlayandan kolxoz işində çalışan valideynlərinin əməyə sevgisinin, dürüst və ədalətli əməllərinin, haqqı müdafiə etdiklərinin şahidi olmuşdu.Xeyirxah və humanist insan kimi formalaşmağın yollarını onlardan öyrənmişdi. Dadaş kişi zamanında təhsil ala bilməsə də, övladlarının təlim-tərbiyəsinə, təhsilinə xüsusi önəm verirdi. Həm valideynlərinin təhriki ilə, həm də özünün güclü yaddaşı və çalışqanlığı sayəsində yazımın qəhrəmanı həmişə sinfin seçilən siması, birincisi sayılıb, dərslərini yaxşı oxuyub, nümunəvi şagird olub.

Orta təhsilin ilk pilləsinə 1961-ci ildə doğma kənd məktəbinin birinci sinfinə qəbul edilməklə, həm də hələ məktəb yaşına çatmamış başlamışdı kiçik Ağaverdi. O günün xatirəsi hələ də yaddaşındadır. Üstündən düz 60 il keçməsinə baxmayaraq müsahibimin 4-5 yaşında olduğu illərin xatirələrini danışması heyrətamiz idi.

Yaddaşının bu qədər aliliyinə, gücünə heyrət etdim. Hətta dünyaya gəlmədiyi zamanların xatirəsini, onun dünyaya gəlişini səbirsizliklə gözləyən valideynlərinin, bacısının və qardaşının xatirələrini nəql edirsə, fenomen yaddaşa malik olduğu danılmazdır təbii.

Təhsilə erkən başlamaq istəyi karandaşa və şagird dəftərinə olan sevgisindən dolayı baş tutub. Dinlədikcə huss edirəm ki, uşaqlıq dövrünün çox uzaq olmasına baxmayaraq qəribə qaydaları olub o dövrün. Məktəbə uşaq toplamaq üçün kəndi ev-ev gəziblər müəllimlər.

İsti yay günlərinin birində məktəb yaşı tamam olmayan kiçik Ağaverdi qonşu uşaqlarla birlikdə kəndin kənarından axan Həkəri çayından gələn arxlarda çimməyə getmişdi. Elə oradaca uşaqlarla rastlaşan məktəb direktoru və gələcək ibtidai sinif müəllimi olacaq Qurban müəllim onun da adını digər uşaqlarla birlikdə siyahıya daxil etmişdi. Məktəb yaşının çatmadığını deyib etiraz etsə də, bir karandaş və bir dəftər «şirinlik» vəd edən müəllimin sözündən çıxmamışdı.

Bir karandaş və bir dəftər hədiyyəsini alarkən yaşadığı böyük sevinc hissini hələ də unutmayıb.

Daha sonra məktəb xatirələri... riyaziyyat müəlliminin eyni anda bir neçə qələmlə qiymət yazmasından, dərs oxumağa tənbəllik edən sinif yoldaşlarının dəcəlliklərindən, onların ucbatından dərs zamanı yaşadığı çətinliklərdən danışanda düşünürəm ki, o dövrün müəllimləri də, şagirdləri də bir başqa olublar.

Haşiyə: müsahibim bu xatirəsini danışarkən o vaxtlar yazı yazmaq alətinin qələm deyil, məhz karandaş olduğunu qeyd edəndə mən çox təəccübləndim düzü.Az zamanda insan elminin nə qədər böyük sürətlə inkişaf etməsini sübut edən faktlardan biridir bu.

8-illik təhsilini Zilanlı sovetliyini əhatə edən məktəbdə, 9-10-cu sinifləri isə doğma kənddən 7 km aralıda yerləşən Xanlıq kənd məktəbində alıb yazımın qəhrəmanı.

Əksər yaradıcı insanların həyat və yaradıcılığı haqda oxuduğum məlumatlardan belə qənaətə gəlmişəm ki, həm riyaziyyatı, həm ədəbiyyatı - hər iki fənni böyük həvəslə öyrənən və çox sevən, amma nəticə olaraq ədəbiyyata üstünlük verənlər çox olub onların arasında.Onlardan fərqli olaraq həm riyaziyyatçı, həm də ədəbiyyatçı kimi davam edib həyata Ağaverdi Nəsirov.

– Doğma kənd məktəbimizdə həm riyaziyyatı, həm ədəbiyyatı mənə çox sevdirən güclü elmi biliyə malik savadlı müəllimlərim var idi, hər iki fənni buna görə çox sevirdim, bu fənlərdən məlumatlı olmağım məhz onların sayəsində mümkün olub. Xanlıq kənd orta məktəbində isə bütün fənlər güclü tədris olunurdu, bu hesabla demək olar ki, bütün fənləri eyni həvəslə oxuyurdum. Hansı sənətə yiyələnəcəyimi tam olaraq müəyyənləşdirmişdim artıq. Yaxınlarımın məsləhətilə sənədlərimi elə həmin il BDU nəzdində yaradılmış mexanika-riyaziyyat fakültəsinə verdim, qəbul imtahanlarından müvəffəq qiymətlər də aldım, amma tale elə gətirdi ki, tələbələr arasında aparılan yerdəyişmələr nəticəsində məni və bir neçə tələbə yoldaşımı Azərbaycan Dövlət Pedaqoji Universitetinə, oradan da birbaşa Stepanakert Pedaqoji Universitetinə göndərdilər.

İxtisasca müəllim olan, Stepanakert Pedoqoji Universitetinin riyaziyyat fakültəsini bitirən Ağaverdi Nəsirovun mühəndis olmaq istəyi onu heç vaxt tərk etmir, o, müəllim işləyə-işləyə 1983-cü ildə İnşaat Mühəndisləri İnstituna qəbul olur, 1989-cu ildə bu ixtisas üzrə ali məktəbi qiyabi olaraq bitirir. Paralel olaraq həm müəllim, həm də mühəndis kimi fəaliyyət göstərməyə başlayır.

Yaradıcılığının ən çox çiçəkləndiyi dövr də elə bu illərə təsadüf edib gənc Ağaverdinin. Məktəb illərində yazdığı şeirlərin heç bircəsi də qalmayıb, hərəsindən bir və ya bir neçə misranı zorla xatırlayır şair - əksər oçerk qəhrəmanlarımda olduğu kimi. Məncə bütün bunlar da dövrün qaydalarına əsasən baş verib. Kitab nəşr etdirməyin çətinliklərini nəzərə alan ədəbiyyat adamları bu məsələyə səthi yanaşıblar.

Tələbəlik illərində düşdüyü mühit onu ədəbi yaradıcılıqla ciddi məşğul olmağa sövq etdi. Səbəb tələbə yoldaşlarının onun yaradıcılığına maraq göstərmələri oldu. Gənc Ağaver-

di bu diqqətdən həvəslənib şeirlərini davamlı olaraq yazmağa başladı, artıq respublika qəzetlərində nəşr olunmaq arzuları baş qaldırmışdı ürəyində. Zaman keçdikcə buna nail oldu. Bir neçə rayon qəzetində - Cəbrayıl, Qubadlı və Zəngilan qəzetlərində mütəmadi olaraq dərc olunmağa başladı. Sonralar bu siyahıya «525-ci qəzet», «Xalq», «Mühit» qəzetləri və digər mətbuat orqanları da əlavə olundu.

– Tələbəlik illəri ilə bağlı maraqlı xàtirələriniz varmı, Ağaverdi müəllim?

– Tələbəlik illəri ilə bağlı iki maraqlı xatirəni sizlərlə bölüşmək istərdim.

Birincisi o idi ki, mənim əsgərlik yaşım universitetdə oxuyanda tamam oldu. 1972-ci ilin yanvar ayında mənə Dağlıq Qarabağ Hərbi Komissarlığından çağırış gəldi. Həm də bu, komissarın özünün şəxsi dəvəti ilə olmuşdu. Komissarla görüşdüm, milliyyətcə cühud olan bu səlahiyyət sahibi məni ali hərbi təhsil almaq üçün Leninqrad şəhərinə göndərmək fikrində olduğunu söylədi. «Mən Bakı cühuduyam. Bu mərtəbəyə gəlib çatmağımda azərbaycanlıların rolu olub, üstümdə onların haqqı var, ona görə də istəmirəm ki, o məktəbə ermənilər getsin. Sən azərbaycanlısan, yaşın da, savadın da əsas verir ki, səni göndərim. Mən bu yaşda podpolkovnikəm, sən mənim yaşımda polkovnik olacaqsan» - dedi.

Bu sözləri deməklə o, məni həvəsləndirməyə cəhd edirdi, mən özüm də getməyi çox istəyirdim, amma təəssüf ki, komissarlıqdan dəfələrlə cəhd etsələr də, valideynlərim buna əsla razı olmadılar.

İkinci maraqlı xatirəm: Stepanakertdə ali təhsil aldığımız illərdə biz - mən və digər tələbə yoldaşım erməni evində kirayə qalırdıq, buna görə ev sahibinə aylıq ödəniş edirdik. Təxminən 1973-cü ilin payızında, soyuq, çiskinli günlərin birində

tələbələrin Azərbaycan MK-nin birinci katibi Heydər Əliyevlə açıq havada görüşü keçirildi və oradakı çıxışı zamanı ulu öndər ilk dəfə olaraq Stepanakert Pedaqoji Universitetininin müstəqilliyini elan etdi.

Həmin günü heç vaxt unutmuram, İlk dəfə olaraq, məhz o gün ulu öndəri yaxından gördüm. Ermənilər onun Stepanakert Dövlət Universitetini müstəqil elan etməsini siyasi addım kimi qiymətləndirir, bu qərarın azərbaycanlıların sayını çoxaltmaq məqsədi güddüyünü qeyd edirdilər. Hətta sovet hakimiyyətinin dəmir qanunlarının sərtliyi belə ermənilərə fikirlərini açıq söyləməyə əngəl yaratmır, onlar biz tələbələrə millətimizi sevmədiklərini, Stepanakertdə azərbaycanlıların sayının artmasına qarşı olduqlarını açıqca bəyan edirdilər.

Belə faktlardan daha birini, atası ilə bağlı xatirələri müsahibim kədər hissilə xatırlayır:

– Sovet dönəmində, sosializm şəraitində yaşayan digər xalqlar kimi bizim də SSRİ ərazisinə daxil olan qonşu respublikalara müstəqil gediş-gəliş etmək hüququmuz var idi. «Hamı bir nəfər üçün, bir nəfər hamı üçün» devizi altında çalışırdıq. Bizim yaşadığımız kəndin adamları yaylağa Ermənistan dağlarına gedir, mal-qaranı, qoyun-quzunu, köç-külfəti yığıb-yığışdırıb dağlara köç edirdilər, iyun ayından sentyabra qədər oralarda məskunlaşardıq. Gorusun Üçtəpə yaylağında məskunlaşdığımız günlərin birində atam və yaylaq qonşularımızdan bir neçəsi şərtləşirlər, satmaq üçün ayırdıqları bir neçə toğlunu da götürüb birlikdə Gorus bazarına aparırlar ki, satsınlar, puluna evlərinə lazım olan ərzaqları alsınlar. Gorus bazarında günortaya yaxın bir erməni atama yaxınlaşıb bir toğlu istəyir. Həm də pulsuz. Atam etiraz etdiyinə görə mübahisə düşür, erməni çığır-bağırla, təhqir dolu sözlərlə toğlunu zorla aparmaq istəyir. Fiziki cəhətdən çox qüvvətli olan atam danış-

mağın faydasız olduğunu anlayır, ermənіyə müqavimət göstərir, yumruğunu işə salıb ermənini əməlli-başlı cəzalandırır. Atamla birlikdə alverə gedən qonşular təkid etsələr də, atam oradan uzaqlaşmır, günahı olmadığı üçün bunu lazım bilmir.

Münaqişə yerindən uzaqlaşan erməni çox keçmədən erməni polisləri ilə qayıdır, həm də əynindəki paltarları bayaqkından fərqli olaraq yırtıq-yırtıq idi. Bunu atamı günahkar çıxarmaq və özünü məsum göstərmək üçün etmişdi. Heç bir günahı olmayan atamı polislər həbs edirlər və düz üç ay sorğu-sualsız, istintaqsız Gorus həbsxanasında saxlayırlar, onunla görüşməyə gələn yaxınlarına belə görüş icazəsi vermirlər.

Üç aydan sonra Şuşa həbsxanasından gələn bir həmyerlimizin sayəsində, tam təsadüfən atamı Şuşaya gətirmək adı ilə Gorus həbsxanasından azad etmək mümkün olur və o adam atama dönə-dönə tapşırır ki, bir də Gorusa gəlməsin».

Bu faktlar ermənilərin iç üzlərini kifayət qədər göstərir və o dövrlərin şahidi olan Dağlıq Qarabağ əhalisinin hər birisi ermənilər tərəfindən belə haqsızlıqlarla tez-tez üzləşirdi.

Beləcə öz axarı ilə davam edirdi həyat... Dağlıq Qarabağ hadisələri başlanana qədər.

Bütün Azərbaycan xalqı üçün son dərəcə ağır olan Dağlıq Qarabağ hadisələrinin şahidi olmaq da varmış yazımın qəhrəmanının taleyində. Erməni manqurtlarının doğma yurd yerlərimizi işğal etməsi səbəbindən onun ailəsinin, yaxınlarının, sevdiklərinin heç vaxt ağlına belə gətirmədiyi köçkünlük həyatı başlandı, 1993-cü ilin 31 avqust günündə onlar da ailə olaraq vətənlərini, isti ocaqlarını tərk edib qəriblikdə yaşamaq məcburiyyətində qaldılar - bütün Qarabağ köçkünləri kimi. Qubadlı adlı bir məkan düz otuz il yaralı yeri, xatirələr kitabının ürəkparçalayan səhifələri oldu köçkünlərin.

Köçkünlük həyatı... Bəziləri üçün bu, çox adi bir cümlə-

dir, bəziləri üçün hətta qınaq obyekti olub köçkünlər. Amma bu sözün arxasında nələrin dayandığını köçkünlər bilir. Həm kənddə, həm də rayon mərkəzində hər bir şəraiti olan evlərini saxlayıb gələn Ağaverdi müəllim və ailəsi uzun illər çətinliklər bahasına yaşayıblar.

O, şeirlərinin birində iki misra ilə belə ifadə edir köçkünlüyün başlandığı məqamı:

Mal tövlədə qaldı, xörək sobada,
Atım dartınırdı, itim çabada.

Kiməsə adi görünə biləcək bu iki misra mənə o məqamların təsvirini tam olaraq göstərdi, o dəhşətli anları yaşatdı. Çox düşündürdü...gözlərim önündə insanlığa sığmayan səhnələr canlandı. Bir ömür, düz bir ömür əmək sərf edib qurduğun isti yuvanı heç bir günahın olmadan tərk etmək məcburiyyətindəsən... hər küncündə, hər bucağında, torpağında, daşında, bağında, bağçasında əllərinin izi qalan, könlünün hərarətini bəxş etdiyin doğma yurda vida etməlisən, illərlə çəkdiyin zəhmət bahasına qurduğun evini işlətməyə qıymadığın əşyaları ilə birlikdə düşmənlərə saxlamalısan. Səbəb? Səbəbi utanc verir: çünki sən müsəlmansan, çünki sən azərbaycanlısan..., çünki sən dünyaya islam dininə mənsub olan bir xalqın övladı olaraq göz açmısan.

Təkcə evini, ocağını, həyət-bacasını, var-dövlətini, sevdiklərinin məzarlarını saxlayıb gəlməmişdilər köçkünlər o ellərdə..., ürəkləri də o yurdlarda qalmışdı hər birinin..., bir ömür boyu unudulmayacaq vətən nisgillərini, bir də heç zaman unudulmayacaq xatirələrini gətirmişdilər özləri ilə.

Üstəlik də bir şair üçün çox qiymətli olan əlyazmalarını, şeir dəftərlərini də itirmişdi şair doğma yurdu ilə birgə.

Köçkün kimi doğma yurdu tərk edən şairin ailəsi müvəqqəti olaraq Sabirabadda məskunlaşır. O ağrılı-acılı illərin çətinliklərindən danışarkən şairin səsində işğalçı dövlətə qarşı bəslədiyi qəzəb və nifrətin sonsuzluğu aydın hiss olunur. Əsirlikdə qalan şeirlərindən, şəhid olmuş bacısı oğlundan, onun bir neçə dəftər vərəqində yazılmış şeirlərini tapıb gətirməsindən danışır.

- Bizim kənd Qubadlı rayonunun tərk edilmiş sonuncu kəndi oldu, istəməsək də artıq kəndin bütün ailələri köçmək məcburiyyətində qalmışdılar, əks halda günahsız əhalinin daha bir Xocalı faciəsi yaşamaq təhlükəsi var idi. Bacım oğlu Aslanov Teymur Çərkəz oğlu polis giziri idi, Xarkov şəhərində təhsil almışdı, biz kəndi tərk etdikdən sonra onun da daxil olduğu polis dəstəsi əhalinin tərk etdiyi ərazilərə nəzarət etmək üçün orada qalmışdılar. Bacım oğlu bir neçə gün bizim evimizdə gecələmiş və mənim əlyazmamla olan «Bıçaq sümüyə yetdi» şeirimi tapıb gətirmişdi. Çox təəssüf ki, Teymur Füzuli uğrunda döyüşlərdə şəhid oldu. Minlərlə qarabağlı gəncin taleyini yaşamaq nəsib oldu ona da.

Teymurun və torpaqlarımız uğrunda canlarından keçən qəhrəman şəhidlərimizin ruhu qarşısında baş əyirəm. Vətəni, torpağı müqəddəs bilən müqəddəs şəhidim, nur içində uyu.

İnamdır, imandır, «Quran»dır torpaq,
Şəhid qanı varsa, kəfəndir torpaq,
Şəhidin qanıyla sulanıbdır o,
Vətəndir, vətəndir, vətəndir torpaq.

***A.*Nəsirov.**

Teymurun gətirdiyi şeiri sonralar «Əsirlikdən qayıdan şeir» adı ilə nəşr etdirir şair.

«Əsirlikdən qayıdan şeir»... nələr danışmır bu ad? Şeirləri əsir düşən şairlərin keçirdiyi hissləri qələmə almaq da qəlb ağrıdır.

Mənim şeirlərim söz səfərimdir,
Yaxınım, uzağım, həndəvərimdir

– yazır öz şeirləri barədə o...
...yaxud:

Mənim şeirlərim halal qazancım,
Mənim şeirlərim alın tərimdir.

Bu misraların hər biri onun «Mənim şeirlərim sevgilərimdir» adlı şeirindəndir ki, şair şeirlərinin onun həyatının ayrılmaz bir hissəsi olduğunu gözəl bədii ifadələrlə əks etdirib:

Mənim şeirlərim könül sevincim,
Eşqim, xəyallarım, həvəslərimdir.
Deyə bilmədiyim, gizli tutduğum,
İçimə çəkdiyim nəfəslərimdir.

Onun yaradıcılığının əsas hissəsini bir şair ürəyinin dünya boyda nisgillərini ifadə edən vətən həsrəti mövzusu təşkil edir. Bir ürəkdə düz otuz il yuva salmış yurd nisgili, bu nisgili daşımağın çətinliyi, qarı düşmənə kin və qəzəb, sonsuz nifrət hissindən doğulan şeirləri yetərincədir. Əksəriyyətini müəllif adı olmadan da təyin edə biləcəyim qədər əzbər bildiyim şeirləri var. «Suqovuşanda», «Xarıbülbül», «Həcərin bulağı»....saysızdır belə şeirlər - yurdu əsir düşənlərin şeirləri.

«Dünya evim Qubadlı» adlı dünyaya göz açdığı müqəddəs di-

yarın gözəlliklərini vəsf edən şeirini oxuduqca sanki Qubadlını qarış-qarış gəzmiş kimi, hər daşının, qayasının bərkliyini, sərtliyini, gül-çiçəyinin ətrini hiss etmiş kimi, dağlarında, gəzmiş kimi, bağlarının nübarını dərmiş kimi hiss edir özünü oxucu... «Həcərin bulağı»...bu şeir o qədər böyük səmimiyyətlə yazılıb ki...

Gecə də, gündüz də görüş yeriydi,
Dəcəlin, tənbəlin tənbeh yeriydi,
Xəbər agentliyi, qəzet, şeiriydi,
Həcərin bulağı - dərgi bulağı.

İlği bulağından tutmuş sevgi bulağına kimi, dərgi, sərgi, vergi, sevgi, sayğı, qayğı bulağı kimi dəyərləndirilən bu bulaq başına toplaşan insanları yenidən o bulaq başında, həm də əvvəlki kimi xoşbəxt görmək fikri keçir oxucunun qəlbindən.O bulaq yerindədirmi görən? Bəlkə də yerindədir...amma o insanlar əvvəlki kimi xoşbəxt olmayacaqlar...Rafael, Vasif, Teymur, Azad kimi mərd oğullar - o yurdun şəhid övladları Həcərin bulağının suyundan içə bilməyəcəklər.Onların da, ölümü ilə şairin köksünə körük basan Fərman əmi, bacısı Tavat da yalnız şairin xatirələrindən boylanacaqlar bu dünyaya.

Adlarını qeyd etdiyim və etmədiyim poema tipli şeirləri çoxdur şairin.Redaktoru olduğum «Xarıbülbül həsrəti» adlı kitabındakı eyniadlı şeirindən də görünür ki, təpədən-dırnağa vətən həsrətinə bürünmüş qəlbin səssiz və çox ağrılı çırpıntılarını əks etdirir onun yazdıqları.

Vətən bildin Qubadlını,
Qaçqın oldun, xarıbülbül.
Sevindirmə gəl düşməni,
Üzün gülsün barı, bülbül.

Dünyanın hər yerində yaşayan bütün azərbaycanlılar üçün Qarabağın, Şuşanın rəmzinə çevrilmiş, adının belə yaralı könülləri titrətdiyi əfsanə çiçəyimizə xitabən yazılmış şeirin hər misrası ürəkparçalayandır.Həyatın hər üzünü görmüş, qismət adlı gözəgörünməz məfhumun əbədilik qəm yükü ilə yüklənmiş şairin xarıbülbülə xitabı onun nəhayətsiz kədərindən, bu kədərin böyüklüyündən xəbər verir.

Bir neçə ay öncəyə qədər o da erməni əsarətində olan torpaqlarımızın işğaldan azad olunması üçün mücadilə edir, bütün şeirlərində xalqı mübarizəyə səsləyirdi:

Neçə ildir tərk etmişik o yurdu,
Düşmən qəsbkardır, pis tələ qurdu.
Nə vaxt sözün deyər müzəffər ordu?
Cənnətimdir, həyatımdır Qubadlı...

...və bu çağırışlar faydasız olmadı...Ağaverdi müəllimin və çağdaş poeziyamızın digər vətənpərvər şairlərinin mübariz səsinə səs verənlər oldu, vətən sevgisi, vətən məhəbbəti, düşmənə sonsuz nifrət oyadan şeirlər gənclərimizin milli-vətənpərlik ruhunun yüksəlməsində böyük rol oynadı. Vətənimizin tarixinə zəfər günümüzü qanları və canları bahasına yazan vətən övladları bu qəhrəmanlığı bacardılar.

Şair isə bu qələbənin baş tutacağına hələ çoxdan inanmışdı - əksər insanların inanmadığı zamanlarda da inanmışdı.

Alıuşağı Koroğlunun elidir,
Övladları Koroğlutək dəlidir.
O torpağı alacaqlar, bəllidir,

- deyib də inanmışdı...

«Ağaverdi, bədbinliyə qapılma» deyə ümidli olmuşdu həmişə ordumuzun qələbəsinə, əsir yurdlarımızın erməni manqurtlarından təmizlənməsinə.

Bütün müsahibə boyu mən onun əsl vətənpərvər şair olduğunu təsdiqləyən məqamların şahidi oldum.Qəlbində olan şəxsi kədərinin sonsuzluğuna baxmayaraq, qəlbi daim vətən eşqilə döyünən, kədərini kimsəyə yük etməyi əsla bacarmayan, insanları təsəlli sözləri axtarmağa məcbur etməkdən çox-çox uzaq olan, hətta 44 günlük müharibədə ön cəbhəyə getmək üçün cəhd edən, çoxlarının təbirincə desəm, «nurlu insan» təsiri bağışlayan, həmişə, hər yerdə haqqı müdafiə etməyə çalışan, köməyə ehtiyacı olan insanlara gücünün və imkanının çatdığı qədər yardım etməyə çalışan dəyərli bir vətən övladını tanıdığım üçün qürur duydum.

O, bütün həyatı boyu insanlara yalnız maddi deyil, həm də mənəvi dəstək olmàğa üstünlük verib.Ətrafdakıların pis tərəflərini ilk dəfədən dilə gətirməyib, pis tərəflərini gördüyü insanlara qarşı ilk dəfədən mülayim davranıb, qüsurlarını üzünə vurmayıb, onların alçaldılmasına qarşı olub.Pislərdən, pis dostlardan sakitcə uzaqlaşıb, bütün ağrıları ürəyində çəkib, təkcə özü çəkib, ağrı-acıları bölüşməyib...etdiyi səhvlərdən əbədi bir həyat dərsi alıb yazımın qəhrəmanı.Həm iş həyatında, həm ailə həyatında qarşılaşdığı problemlərin həllini tapmaq üçün çaba göstərib.Məhz bu xarakterlərinə görə ətrafdakılar onu həmişə lider görüblər, ağsaqqal seçiblər, ağıllı məsləhətlərindən yararlanıblar və bütün bunların müqabilində ona qarşı böyük hörmət və məhəbbətlə davranıblar.

İnandığı, dəyər verdiyi insanlardan qarşılıq görmədiyi məqamlar da olub Ağaverdi müəllimin.Hər birimizin həyatında olduğu kimi.Belə məqamların üstündən sükutla keçməyi üstün tutub,

hesab istəmək fikrindən çox uzaq olub.Ümumiyyətlə, bütün hallarda insanları yüksək dəyərləndirmək kimi gözəl bir missiyanı ürəyində daşımaq gücünə malik biridir qəhrəmanımız.

O, riyaziyyat müəllimi olub, həm də yaxşı bir müəllim olub sanıram.İndi də şagirdləri onu yad edirlər, dəyərləndirirlər.Şagirdləri onu dürüst bir insan kimi tanıyıblar həmişə, özü bu xarakterini riyaziyyatçı olması ilə bağlayır. «Riyaziyyat müəllimləri düzgün danışmağı sevən insanlardır, bu, bizim sənətimizdən irəli gəlir- düzgünlüyü təbliğ etmək».

Bu, aksioma deyil, əlbəttə.Hamını özü kimi görmək bacarığıdır müəllifə belə düşünməyə əsas verən.

Öz işimin pərvanəsi, yanan şamı, dəlisiyəm,
Savad, ziya, zəka verdim cahi - cəlalım eşqinə.

Şagirdlərini də övladları qədər çox sevən, onların təlim-tərbiyəsinə həmişə ciddi şəkildə nəzarət edən şair nəvələrinə qarşı da eyni cür davranıb həmişə. Bu mövzuda danışmağı sevməsə də, qısa məlumat verməsini xahiş etdim.

- Üç övladım olub. Böyük qızım Lalə 1978-ci il təvəllüdlü, Bakı Dövlət Universitetinin fizika fakültəsini bitirmişdi, mənimlə birlikdə Araz Ekologiya Litseyində fizika müəllimi idi, hədsiz savadlı və bacarıqlı bir müəllim idi. 2004-cü ildə dünyasını dəyişdi. Ikinci övladım Aqil 1980-ci il təvəllüdlüdür.9-cu sinfi bitirəndən sonra qardaş Türkiyədəki Bursa Hərbi Liseyində dörd il, daha sonra Ankara Kara Hərbi Okulunda da dörd il təhsil aldıqdan sonra bir il Türkiyə ordusunda zabit kimi qulluq etdi. Sonrakı hərbi fəaliyyətini ölkəmizdə davam etdirən, eyni zamanda Bakı Dövlət Universitetinin hüquqşünaslıq fakültəsini də bitirən Aqil hazırda ehtiyatda olan hərbçidir.Türkiyədə,Karaokulda təhsil aldığı müddətdə Aqil bəyə

ikinci bir diplom da verilib -sistem mühəndisliyi diplomudur ki, ölkəmizdə onun qarşılığı isə inzibati orqanların idarə olunması üzrə mühəndis-menecer vəzifəsidir ki, bu qədər yüksək ixtisaslarının olmasına baxmayaraq, o, hazırda işsizdir.

Üçüncü övladım Anar 1981-ci il təvəllüdlüdür, Xarici Dillər Universitetinin alman dili fakültəsini bitirib».

Əlavə olaraq qeyd edim ki, dünyasını vaxtsız dəyişən gənc və gözəl, istedadlı qızının xatirəsi bir an belə unudulmayıb yaxınları tərəfindən...bu yaralı mövzu şairin şeirlərində həmişə ana mövzulardan biri olub, oxucusu olaraq bilirəm ki, bəlkə də ən gözəl şeirlərini qızına həsr edib şair.Onun yaradıcılığı ilə tanış olan hər bir oxucu bunu təsdiq edə bilər.

Lalədən yadigar qalan Əfşan adlı istedadlı bir nəvəsi var Ağaverdi müəllimin. Azərbaycan Diplomatiya Akademiyasının hüquq fakültəsinin ikinci kurs tələbəsidir.

Digər nəvələri - Amin, Hüseyn, Məcid, bibisinin adını daşıyan Lalə və Fərid.Hər birisinin babalarının adına layiq övlad olmalarını ürəkdən arzu edirəm. Babaları və nənələri, ata-anaları xoş günlərini görsünlər həmişə.

Hazırda Biləcəri qəsəbəsində yaşayan şair dövrünün bir çox insanları kimi yaradıcılığa ən çox zaman ayıra biləcəyi illərini yaşayır. Əksər azərbaycanlı şairləri üçün həyatın qaydaları belə olub...çarpışmaqla, vuruşmaqla keçib yaradıcı insanların ömürləri. Özünü sonda düşünən, övladları üçün daha çox çalışan, həyatın çətinliklərini sərt və qabarıq şəkildə yaşayanlardan biri olub Ağaverdi müəllim. Kənardan həmişə məğrur, mərd və mətin görünən şairin qarşılaşdığı haqsızlıqlar bu günə qədər davam edib. Özü etiraf etmədi müsahibə boyu, amma mən bunları o demədən də anladım. İnsanlara zamanı qabaqlamağı, vaxtı girovlamağı, yersiz söz-sovla gün keçirməməyi, bir başa sığal çəkib bir ürək ov-

lamağı aşılayan şairdir Ağaverdi Nəsirov. Çünki o, insandır. Onun sözlərilə desəm:

Ən üstün dəyərdir - vəfalıdırsa,
Loğmandır, həkimdir - şəfalıdırsa,
Qəzəldir, muğamdır - əhvallıdırsa...
O, insandır.

Dünyanın yaxşılarından daha birini tanıyacaq dəyərli oxucu bu yazımla.

Dünyanın yaxşılarından biri olmaq nəsibiniz olsun!

Arzu HEYDƏROVA,
Ədəbi-bədii, elmi-publisistik
"Yurd" jurnalının redaktoru,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

ZƏFƏR
DUYĞULARI

BİR TƏKAMÜL YOLU KEÇDİ BU ƏSGƏR

Düşmən töhmət etdi, təmkin önlədi...,
Bir gün qeyrət suyu içdi bu əsgər.
Dünya hərb tarixin o yenilədi,
Bir təkamül yolu keçdi bu əsgər.

Qovaq ağacından dar ağacına,
Küknar ağacından dor ağacına,
Tüfəng qundağından zor ağacına.
Bir təkamül yolu keçdi bu əsgər.

Közərə, közərə od aldı bir gün,
Gözü qamaşdıran zər oldu bir gün.
44 gün döyüşdə ər oldu hər gün,
Bir təkamül yolu keçdi bu əsgər.

Barıt qoxusuyla ətirləndi o,
Söz-söz, misra-misra sətirləndi o
Sevildi, seçildi, xətirləndi o,
Bir təkamül yolu keçdi bu əsgər.

Şuşa qalasında zəfərin görüb,
Sarsılmaz, yenilməz təpərin görüb.
Düşmən acizləşib, hünərin görüb,
Bir təkamül yolu keçdi bu əsgər.

İmzasın yazdırdı dövrün əsrinə,
Şöhrət qazandırdı sərkərdəsinə.
Ağaverdi başla tarix dərsinə,
Bir təkamül yolu keçdi bu əsgər.

02.12.2020

İGİDİN EŞQİ

Mən qalib ölkənin, qəhrəman xalqın,
İgid bir oğluyam, sevirəm səni.
Ürəyim pərvazdır, gözlərim dolgun,
Gəlmişəm Leylimə çevirəm səni,
İgid bir oğlanam sevirəm səni.

Döyüşdə çox düşdüm çətinə, dara,
Qarşında oluram aciz, avara.
Subaylıq sultanlıq olmasın yara,
Gərək sultanlıqdan devirəm səni.
İgid bir oğlanam sevirəm səni.

Məcnunluq məfhumdu, köhnə şərəfdi,
Məcnun aşiqidi, eşqə xələfdi.
Sevgimin yolları sizə tərəfdi,
Fürsət axtarıram, güdürəm səni,
İgid bir oğlanam, sevirəm səni.

Xəfif təbəssümün canımı alır,
Qanımı coşdurur, ağlımı çalır.
Dilim topuq vurur, ya da lal qalır,
Hərdən yuxularda öpürəm səni,
İgid bir oğlanam, sevirəm səni.

Gözümdən çəkilmir gözəl bənizin,
Qatilim olacaq bu eşq dənizin.
Anam çox istəyir, görsün «kəniz»in,
Başım da kantujdu..., deyirəm səni,
İgid bir oglanam, sevirəm səni.

KOMANDAN VAR OLSUN, VƏTƏN YAŞASIN

(Bir ağbircək nənəmizin dilindən)

Bir az ac yaşayaq, bir az da susuz,
Təki, tez rədd olsun bu acgöz quduz.
Yaşaya bilmərik biz Qarabağsız,
Hamımız əsgərik, qoy dünya duysun,
Komandan var olsun, vətən yaşasın.

Bağıma sarı bax, smerç dağıdıb,
Nəvəmin qanını yerə axıdıb.
Balam balasına dua oxudub,
Hamımız əsgərik, qoy dünya duysun,
Komandan var olsun, vətən yaşasın.

Mal leşin görürsən, qəlpədən ölüb.
İtimiz sağ qalıb, ölümdən dönüb.
Bir Xan çinara bax, ortadan bölüb,
İntiqam alınır..., qoy dünya duysun,
Komandan var olsun, vətən yaşasın.

Evimiz uçubdu, uçsun..., nə olsun...,
Bir oğlum şəhiddir..., biri də olsun...
Biri qazi olsun, nəvəm doğulsun,
Hamımız əsgərik, qoy dünya duysun,
Komandan var olsun, vətən yaşasın.

Bu cür nənələrin gözləri dönməz,
Oğullar fədakar, qızlar yenilməz.
Bir kərə yüksələn bayraq ta enməz,
Hamımız əsgərik, qoy dünya duysun,
Komandan var olsun, vətən yaşasın.

EY CILIZ ADAMLAR

Elin sevincinə sevinməyənlər,
Canlı ola-ola, cansız adamlar.
Olanı-olmazı bəyənməyənlər,
Ey cılız adamlar, cılız adamlar.

Bir işin qulpundan yapışmayıbsız,
Bir gün də cəbhədə çarpışmayıbsız.
Bir dara, çətinə alışmayıbsız,
Ey cılız adamlar, cılız adamlar.

Nöqsan axtarırsız zəfərimizə,
"Vedrə bağlayır"sız hünərimizə.
Palandı deyirsiz yəhərimizə,
Ey cılız adamlar, cılız adamlar.

Böhtana düztəhər don geydirirsiz,
Qurutmuş inəkdən süd eydirirsiz.
Hamıdan, hər şeydən gileylənirsiz,
Ey cılız adamlar, cılız adamlar.

Niyə qursağınız bu qədər dardır,
Pislik içinizdə tam bərqərardır.
Yurdun boynunuzda çox haqqı vardır,
Ey cılız adamlar, cılız adamlar.

Gəlin, ibrət alın Ağaverdidən,
Sizinlə öyünsün bu gözəl vətən,
Lağ-luğaz etməsin hər yoldan ötən,
Ey cılız adamlar, cılız adamlar.

10.01.2022.

44 GÜNLÜK ZƏFƏR

Könlümüzü məskən etsin allah eşqi, qorxusu,
Qurtarmır ki, bu dünyanın məchulları, sorğusu.
Üzə çıxmır uzun illər gerçəklərin doğrusu,
Ay el oğlu, sən də sevin, dünyamıza yaxşı bax,
Çiynimizdən götürülüb 30 illik ləkə, dağ.

Dilimiz də gödək idi erməninin yanında,
Qeyrətimiz pas atmışdı qılınc kimi qınında.
Günahları axtarırdıq biz hər kəsin qanında,
Çiynimizdən götürülüb 30 illik ləkə, dağ,
Eynəyini təzələ ki, bu dünyaya bir də bax.

Bakımızın küçələri zibil idi, toz idi,
Danışanda lağ edərdik, əzbərimiz "qoz" idi.
Qərarımız ürkək idi, həyatımız boz idi.
Çiynimizdən götürülüb, 30 illik ləkə, dağ,
Ey günəş çıx, ey od alış, ey külək əs, yağış yağ.

Cəmdəkləri asmışdılar Səməd Vurğun bağına,
Nə şəhərə hörmət vardı, nə də şair Vurğuna.
Başqa necə cavab verim hər hərcayi sorğuna,
Çiynimizdən götürülüb 30 illik ləkə, dağ,
Ürəyinə sevgi doldur, dünyamıza yaxşı bax.

Bundan sonra gözəl danış, könül açsın sözlərin,
Xəbisliyin daşını at, sevgi səpsin gözlərin.
Payızına, yazına bax azad olmuş düzlərin.
Çiynimizdən götürülüb 30 illik ləkə, dağ,
Çiçəklənir, üzə gülür qaratorpaq Qarabağ.

Bütün dünya vəsf eləyir 44 günlük zəfəri,
Qarabağı azad etdi Azərbaycan əsgəri.
Prezidenti qarşıladı qədim Şuşa şəhəri,
Üstümüzdən götürüldü 30 illik ləkə, dağ,
Sən qəflətdən oyanmazsan, düşünməsən bu sayaq.

Ağaverdi nə xoşdur ki, haqqı görən gözün var,
Doğruları söyləməyə xalq yanında üzün var.
İnsanları barışdıran, yol göstərən sözün var,
Çiynimizdən götürülüb 30 illik ləkə, dağ,
Sirli dünya, dolğun həyat, şanlı zəfər, gözəl çağ.

21.02.2021

LALƏZARLIQ

Qızıl gül qönçələn, qərənfil açıl,
İnsanlar seyr edir bu məzarlığı.
Tezcə pardaxlanın, sizi gözləyir,
Şəhid sinəsinin laləzarlığı,
Bu dünya seyr edir bu məzarlığı.

Müvəffəq olmadı, basıldı düşmən,
Dilindən, sözündən asıldı düşmən.
Makrondan[1] soruşun, nasıldı düşmən,
Çox gözlər kor edib milli varlığı,
Şəhid sinəsinin laləzarlığı.

Dağdan da, daşdan da intiqam alıb,
Qoşa çay boyunca xaraba salıb,
Laləzar körpüsü nə yaxşı, qalıb,
Dünyaya tanıtdı bu qəddarlığı
Şəhid sinəsinin laləzarlığı.

[1] Makron - Fransanın prezidenti

Neçə viran olmuş məscidimiz var,
Neçə şikəst olmuş igidimiz var.
Hər kənddə, şəhərdə şəhidimiz var,
Bayrağa bürünüb..., hər məzarlığı,
Şəhid sinəsinin laləzarlığı.

Əsgəri müsəlləh, əməli hünər,
Ölkəm zəfər çaldı, şanlı bir zəfər,
Ağıllı kənd salır, ağıllı şəhər.
İstiqlal, hüriyyət olub varlığı,
Şəhid sinəsinin laləzarlığı.

Son verildi 30 illik həsrətə,
Sahib olduq bir qeyrətli dövlətə.
Kim nə deyər belə şanlı millətə,
Qürur sərgisidir, zəfər bayrağı-
Şəhld sinəsinin laləzarlığı.

Vətən oğlu, fərəh hissim dağ aşır,
Qürrələnmək bizə gözəl yaraşır.
Ağa Aqil şeirin ev-ev dolaşır,
Ünvanı olubdu minnətdarlığı,
Şəhid sinəsinin laləzarlığı.

VIRAN OLMUŞ VARLI KƏNDİM

Şükr etmişəm allahıma,
Müntəzirəm salamına,
Hənirtinə, kəlamına,
Dadlı, duzlu, şorlu kəndim.

Bitdi zülüm, bitdi həsrət,
Tüğyan etdi ordu, dövlət.
Yayılıb şan, şərəf, şöhrət,
Ey bülbülü xarlı kəndim.

Bu Həcərin bulağıdı,
O erməni ulağıdı,
Bu da odun qalağıdı,
Ey atəşli, qorlu kəndim.

Az qalmışdı son bahara,
Çıxdım qoşa kahalara.
Qurd düşüb xarlamış qara,
Ey kahalı, qarlı kəndim.

Haqqın gəlsin didəsindən,
Cana doyduq hədəsindən.
Sıyrılmısan mədəsindən,
Qonaqlı, qaralı kəndim.

İz qalmayıb hovuzumdan,
Ağrım keçir omuzumdan.
Ermənin donuzundan
Zinhar, ahu-zarlı kəndim.

Yadlıq yağır pərt üzündən,
Sürüdüm tutub dizimdən.
Yedim dadlı cəvizindən,
Ey bəhrəli, barlı kəndim.

Əl uzadıb öz quyumdan,
Hey içdim zəmzəm suyundan.

Fəxr duydum öz soyumdan,
Ərənləri karlı kəndim.

Baş qoyum daş balıncına,
Bürünmüşəm yapıncıma.
Ayrılacam, sabah cuma,
Ey taleyi zorlu kəndim.

Daha dözmür Aqil Ağa,
Çox dözdük, çox ayrılığa.
Haçan gələk yaşamağa,
Viran olmuş, varlı kəndim?

24.08.2021

KÖNÜL DOSTUM, GEDƏK ƏFƏNDİLƏRƏ

(*Cəbrayıl r-nun Əfəndilər kəndi alınanda*
Qubadlı r-nun həmin adlı kəndindən olan
könül dostum Məhəmməd zəng edərək, dedi ki,
hamı məni təbrik edir, sən niyə susursan...?)

Yolumuz açılır..., gəl gedək, qağa,
Bizim kənddən keçək Əfəndilərə.
Gedək, səcdə edək qara torpağa,
Baş əyək müzəffər sərkərdələrə,
Məhəmməd, gəl, gedək Əfəndilərə.

Məcburi köçkünlük yaraşmır bizə,
«Salamat qal !» deyək keçmişimizə.
Bakıda son verək hər işimizə,
Məhəmməd, gəl, gedək Əfəndilərə,
Baş əyək müzəffər sərkərdələrə.

Sən məndən yaxşısan xatırlamağa,
Nə bir hədd tanıdıq, nə bir qadağa.
Gəl, gedək sarılaq orda bayrağa,
Baş əyək müzəffər sərkərdələrə,
Məhəmməd, gəl gedək Əfəndilərə.

Baş çəkək Xanlıqda məktəbimizə,
Nələr kadr verib, gör ölkəmizə.
Biz ordan başlayaq ilk işimizə,
Baş əyək müzəffər sərkərdələrə,
Qardaşım, gəl, gedək Əfəndilərə.

Sənə «Züleyxa»dan danışmayacam,
Bu sayaq işlərə qarışmayacam.
Mən evə-eşiyə sığışmayacam
Gəl dostum, gəl gedək Əfəndilərə,
Baş əyək müzəffər sərkərdələrə.

Bizim dostluğun da kökü ordadır,
O müqəddəs yerdə, saf məkandadır.
Azadlıq açarı komandandadır,
Baş əyək, müzəffər sərkərdələrə,
Könül dostum, gedək Əfəndilərə.

Sən də müsəlləhsən, Ağaverdi də,
Bu günü də gördük, bu dəyərdi də.
Ali baş komandan bir öndərdi də,
Baş əyək müzəffər sərkərdələrə,
Məhəmməd, gəl, gedək Əfəndilərə.

BU NƏ VANDALLIQDI

Ey sülhdən danışıb ara qatanlar,
Yığışın, yığışın siz özünüzə.
Suyu bulandırıb, balıq tutanlar,
Utanın, su verin tor gözünüzə.

Ermənіyə müftə silahlar satma!
Bu azğın erməni yenə şirnikdi...
Mülki əhaliyə raketlər atma!
Bu nə vandallıqdı, nə vəhşilikdi?!

Ta arxalı köpək qurdu basammır,
İstədin, arxan da bir qoşun çəksin.
Ta bizdə tərəddüd, qorxu yaşammır,
Sənin istehkamın başına dəysin.

Ali baş komandan öndərdir, öndər,
Xilaskar ordumuz , bax, qan qusdurur.
«Saxta sülhə çağır və silah göndər»,
Makronu məntiqlə «vurur», susdurur.

Hanı təkəbbürün, hanı o övkən,
Döyüş meydanında gör üzümüzü.
Sizə çox yaraşır bu miskin görkəm,
Allahım hifz etsin döyüşçümüzü.

Tarix yaşadacaq haqq olanları,
Heç nə yayınmır ki, tanrı gözündən.
Nahaqqı, qəddarı,qudurğanları,
Silib-süpürəcək bu yer üzündən.

Ağaverdi, pislə bu vandalizmi,
Pislə ədalətə göz yumanları.
Erməni xisləti-dövrün faşizmi,
Qətl oldu Bərdənin dinc insanları.

YAŞA, SƏN EY FATEH

«Danışaların yox, çalışanların yanında olun.»

Qarabağ bizimdir, bizim də oldu,
Bu şanlı tarixdir, şöhrətli yoldu.
Təbim cuşə gəlib, sözüm də boldu,
Şanlı tarıx yazdı şanlı ordumuz,
İşğaldan qurtuldu dağlıq yurdumuz.

Müstəqil dövlətin hürr vətəndaşı,
Çağır, yanına al dostu, yoldaşı.
Araşdırın, yazın yeni yaddaşı,
Tarixə gömülür süfrə qurdumuz,
Yeni tarix yazdı şanlı ordumuz.

Şüşa baş tacımız, Xocalı yaram,
Daha inləmirəm, çağlayan taram.
Simi ahəstə vur, çal aram-aram,
Səslənsin tar, kaman, nağara, qopuz,
Yaşa komandanım, yaşa ordumuz.

Sən ey igid oğlan, sən ey gözəl qız,
Biriniz yalquzaq, biriniz yalqız.
Sən bir xəyal eylə, sən izdivac cız,
Bax, dövran dəyişir, şaddır yurdumuz,
Yaşasın xilaskar, şanlı ordumuz.

Kəsmə danışanın böyrün, ayıq ol,
Çalışanla çalış, igid, sayıq ol.
Qoşul bu axına, ayıq-sayıq ol.
Şanlı tarix yazdı şanlı ordumuz,
İşğaldan qurtulub dağlıq yurdumuz.

Ali baş komandan hünər göstərir,
Aləm çalxalanır, sözü göz dəlir.
Düşmən tənha qalıb, dünya düzəlir,
Başından vuruldu qarnı qurddumuz,
Şanlı tarix yazdı şanlı ordumuz.

Düşmən dilə gəlib, imdad dilənir,
Yox olub təkəbbür, öfkəli hənir?!
Yaralı köksümə fərəh çilənir.
İşğaldan qurtuldu əsir yurdumuz
Yaşasın xilaskar, şanlı ordumuz.

Ağaverdi, sən də söz əsgəri ol,
Yeni məzmun düşün, yaz-yarat bol-bol.
Orduyla ayaqlaş, o cığır, bu yol,
Yeni üfüq açır igid ordumuz,
Yaşa, sən ey fateh, sevin yurdumuz.

MÜJDƏMİZ XANKƏNDİ, MÜJDƏMİZ ŞUŞA

«Yaxınıq Şuşaya, bir nəfəs qədər»,
Mən necə gəlməyim ilhama, cuşa.
Bu zəfər, qələbə, möhtəşəm hünər,
Müjdəmiz Qubadlı, müjdəmiz Şuşa,
Mən necə gəlməyim ilhama, cuşa.

Nəfəs alıb-verib fərəhlənirəm,
Müjdəni düşünüb ürəklənirəm.
«Qalibik!» fikriylə şərəflənirəm,
Gəlmişəm ilhama, gəlmişəm cuşa,
Müjdəmiz Xankəndi, müjdəmiz Şuşa.

Qaçqınlıq, köçkünlük bitibdi qardaş,
Ayə, ay əmioğlu, bir dombalaq aş...
Düzdü, qalmayıbdı, daş üstündə daş,
Eybi yox..., qoy olsun, nə gəlib daşa...,
Müjdəmiz Xankəndi, müjdəmiz Şuşa.

Özünü itirdi, ağnadı külə,
Səpələdi smerç, fosforlu hələ...,
Tərtərə, Gəncəyə, Bərdəyə belə....
Drondan qaçırlar..., gəlirlər tuşa,
Müjdəmiz Xankəndi, müjdəmiz Şuşa.

Xocalı kəlməsi ləkəydi, düzü,
Düşməndən öc aldı fatehin ozü.
Məsələ çevrilib cümləsi, sözü,
Gəlməsin nəzərə, pis gözə, haşa...
Müjdəmiz Xankəndi, müjdəmiz Şuşa.

Mən bir tumurcuğam, qönçələnirəm,
Günəşəm, pis gözdən gecələnirəm.
Gözəl bir talehəm, incələnirəm.
Sevinc göz yaşlarım tökülür qoşa,
Müjdəmiz Xankəndi, müjdəmiz Şuşa.

Ürəyimə köçüb sanki bu aləm,
Gözlərim nur səpir, sərməstdir haləm.
Duyğulu insanam, demə qafiləm,
Sevinc göz yaşlarım - hörülür qoşa,
Müjdəmiz Xankəndi, müjdəmiz Şuşa.

Müjdələr gözəldir fateh dilində,
Yığılaq meydana, duraq önündə.
Müjdəmiz səslənsin bayraq günündə,
Karvanlar düzülsün, olsun tamaşa,
Müjdəmiz Xankəndi, müjdəmiz Şuşa.

Bayraq marafonu başlasın o gün,
Dursun pandemiya, olsun toy-düyün.
Yığışsın hər köçkün, toplasın yükün,
Daha saxlamayaq köçü obaşa,
Müjdəmiz Xankəndi, müjdəmiz Şuşa.

Bayraq marafonu tankla başlasın,
Fişəngli lüləsin göyə tuşlasın.
Haylar meşələrdə, dəymə..., qışlasın,
Daha lüzüm yoxdur hərbə, savaşa,
Müjdəmiz Xankəndi, müjdəmiz Şuşa.

Çalınsın Koroğlu üverturası,
Əsgərlər oynasın cəngi havası.
Başlasın düşmənin ələmi, yası,
Dərd-qəmlə, kədərlə qalsın baş-başa,
Müjdəmiz Xankəndi, müjdəmiz Şuşa.

Düşmən xatırlasın Ağaverdini,
Viran eyləyibdi gözəl kəndini.
Bundan sonra bilər o da həddini,
Şükür, arzularım çıxmadı boşa,
Müjdəmiz Xankəndi, müjdəmiz Şuşa.

08.11.2020

ŞƏHİD ƏSGƏRİN MƏKTUBU

Sənə söz vermişdim, hərb bitsin, gəlim,
Gövrək duyğuları ayıldacağam.
Mənə yar olmadı vaxtsız əcəlim,
Görünür, tabutda qayıdacağam.

Mən səni çox sevdim, özümdən də çox,
İndi əcəl çatıb, naçar qalmışam.
Gozüm kimi sevdim, gözümdən də çox,
Heynim ki, çox ağır yara almışam.

Xöşbəxtliyin arzum idi, olmadı...,
Oğul lazım, darda qalsa ölkəsi.
«Göbəkkəsdi» bizim idi, olmadı,
Müqəddəsmiş ana Vətən sevgisi.

Mənim vaxtım çox az qalıb, biləsən,
Dar məqamda mən yazıram məktubu.
Kaş yanımda sən üzümə güləsən,
Üfüq çəkir gözlərimin qürubu.

Sarınsa da, bir axın var qanımda,
Əlini üz, bir yuva qur özünə.

Gətirəcək, əsgər dostum yanımda,
Sən ağlama, yaş yaraşmaz gözünə.

Mən sözümü tutammadım sevgilim,
Ya qismət bu..., zaman gələr..., gülərsən.
Hənirtinə çox möhtacam, sevgilim,
Şəhid olsam, məzarıma gələrsən.

06.12.2020

SEVİNC GÖZ YAŞLARI

Mənim sevincimin hüdüdu yoxdur,
Gözümdən yaş axır, yaş gilə-gilə.
Ölkəm çalxalanır, bayraq nə çoxdur...?!
Çöhrələr gül açır el gülə-gülə.

Bütöv Azərbaycan nura boyanıb,
İçimdə ilhamım, təbim oyanıb.
Nisgilim, hicranım dim-dik dayanıb,
Geri yollayıram mən bilə-bilə.

Ordum düşmənimə dedirdir toba,
Ağırdır başına vurduğu zopa.
Şaddır, bayram edir bu el, bu oba,
Novruzmu tez gəlib, ya çilə..., çilə.

Çəl, mənimlə danış, ay yoldan ötən,
Zəfəri duyanmaz hər baş, hər gödən.
Nə istədik verdi, bu şanlı vətən,
Arzula, niyyət tut, gəl dilə, dilə.

Sevinc göz yaşlarım cızır çöhrəmi,
Ordumuz bitirib müharibəni.
Dabana tüpürüb qaçır erməni,
Fərari dağılıb bu çölə, çölə...

Çox yekə danışdı, peşmandı indi,
Başın dik tutammır, burnu əzildi.
Düşmənin basıldl, ay Ağaverdi,
Cəbhədən qaçırlar, lap ölə-ölə.

ŞƏR ÇARÇILARI

Döyüşmək gələndə yoxsuz ortada,
Ziyankar varlıq tək çoxsuz ortada.
Böhtan demək üçün çıxdız parada,
Goreşən, ziyankar şər carçıları,
Fikir oğruları, söz «qoçuları».

Aldanan kütlə var, mən o deyiləm,
Tamahım da yoxdur, nəfsə əyiləm.
Mən siz olammaram, hər gün söyüləm.
Goreşən, ziyankar şər carçıları,
Fikir oğruları, söz "qoçuları".

Niyə xor baxırsız zəfərimizə?
Xalqmı bulaşacaq zəhərinizə?
Niyə utanmırsız təhərinizə,
Goreşən, ziyankar, şər carçıları,
Fikir oğruları, söz "qoçuları".

Yalaq yer tapırsız harda yaransa,
Siçan deşiyiniz London, Fransa.
Qalıbsa, qısılın abırınıza,
Goreşən, ziyankar şər carçıları,
Fikir oğruları, söz "qoçuları".

Ağac qurdsuz olmaz, ölkə düşmənsiz,
Qatığa qaradır deyir yüyənsiz.
Siz də bu çirkabda kar-kor üzənsiz,
Məşhur adınız var, "şər carçıları",
Böhtanın, yalanın söz " qoçuları".

Bizim düşmənimiz qurdun təkidir,
Böhtanlar uydurur, guya zəkidir.
Sizlər də düşmənin vintin bərkidir,
Goreşən, ziyankar şər carçıları,
Fikir oğruları, söz "qoçuları".

Nədir əməliniz, düşündünüz siz?
Şər dəyirmanına su tökənlərsiz.
Özgə süfrəsindən yal güdənlərsiz,
Goreşən, ziyankar şər carçıları,
Fikir oğruları, söz "qoçuları".

Bəs siz nə vermisiz doğma vətənə,
Çirkab atırsınız dada yetənə.
Vicdanı dəyişdiz acgöz gödənə,
Goreşən, ziyankar şər carçıları,
Fikir oğruları, söz "qoçuları".

Abadlıq yayılıb geniş məkanda,
Qayıdış başlayıb Azərbaycanda,
Qayıdın vətənə bir xoş zamanda,
Görün, nə yaradır el carçıları,
Əməl sahibləri, iş qoçuları.

Deməyin ki, kimdir bu Ağaverdi,
Vətən keşiyində duran bir ərdi.
Qayıdın vətənə, olmayın dərdi,
Qayıdın, olmayın şər çarçıları,
Fikir oğruları, söz "qoçuları".

DAĞLAR

Müzəffər igidimiz, qardaşoğlum,polkovnik Haqverdi Dadaşova ithaf edirəm.

Deyirlər elə bil yer-yurd «kiçilib»,
Mən həmin adamam, dəyişmə dağlar.
Məhşur sərkərdəmiz qonaq gələcək,
Bizim qalır axı deyişmə, dağlar.

«Qaşbaşı» önündə səcdə durarıq,
Həcər bulağında süfrə qurarıq.
Ordenli igiddir o sısqa, arıq,
Elinə, obana a teşnə dağlar.

Yəqin bəzənmisən allı yaşıla,
Uşaq yola saldın, qalıb qarşıla.
Bizi qonaq elə ballı xaşıla,
Qonaqlı, qaralı, ay seçmə dağlar

Qayana dırmaşıb, zirvə keçərdik,
Yastan yerlərindən göy ot biçərdik.
Bulağın gözündən buz su içərdik,
Axır yamacından o çeşmə, dağlar?!

Tapsaq, həzm edərdik baldırğanını,
Bizə güc gələrdi çayın axını.
Yaxşı qovaladıq acgöz yağını,
Daha moda düşər "bığ eşmə", dağlar.

Qoynunda keçibdi gözəl gəncliyim,
Elə orda qaldı ərkim, dincliyim.
Sənin nə suçun var, səndən inciyim,
Köhnə palan için ta eşmə, dağlar.

Bir gələk, çıxacam yenə örüşə,
İçimi didən dərd durub gərdişə.
Sirrim, saxlancım var bizim görüşə,
Tündməcaz olmuşam, əyişmə dağlar.

Biz ayrı yaşadıq bu qərinəni,
Söz aşiqi etdi ayrılq məni.
Niyyətlə əkirdim hər il səməni,
Balanı bağışla, öcəşmə, dağlar.

Yəqin unutmarsan Ağaverdini,
Birgə bölüşərdin elin dərdini.
Amma itiribdi Xudaverdini[1],
Ona bu günahı sən keçmə, dağlar.

26.07.2021

[1]Xudaverdi – böyük qardaşımdır.

ZƏNGƏZUR DƏHLİZİNDƏ

Yenilənir dünyamız,
Dəmir yol xətti-dəhliz,
Düşmənin sinəsindən
Yol salır liderimiz.

Ağlımıza gəlməyən
Başımıza gələcək.
Yenə düşmən xar olar,
Yenə dostlar güləcək.

Körüklənir yanğımız,
Dərindəymiş ağrımız.
Zəngəzur dəhliziylə,
Artacaq növrağımız.

Salvartıdan meh əsər,
Qapıcıqda gün çıxar.
El dönər Nüvədiyə,
Meğridə hay tıncıxar...

Nələr olacaq, nələr
Zəngəzur dəhlizində?
Gün gələr su içərik,
Zəngəzur kəhrizində.

Bakı-Meğri-Naxçıvan,
Nə yuxudur, nə röya...
Gözün aydın, ey vətən,
Səs salmısan dünyaya.

17.08.2021

O GÜN BU GÜNDÜ

30 il gözlədik son 44 günü,
Gəl, ay elim-obam, o gün bu gündü.
Vallah da, billah da İLHAM FATEHdi,
Təbiət necə də gözəl göründü,
Eý, gözünüz aydın, o gün bu gündü.

Uladı yalquzaq..., kişnədi kəhər... .
Utancla yaşadıq, dözdük birtəhər.
Gözlədik yolunu hər axşam-səhər,
Qəlbimdə məşəl var..., alov dilimdi,
Ey, gözünüz aydın, o gün bu gündü.

Acı dilim olub şipşirin kişmiş,
Sanki dada gəlib bu günlər biş-düş.
Ordumuz hünərli, möhtəşəm imiş,
Dünya da dəyişib, çox şad göründü,
Ey, gözünüz aydın, o gün bu gündü.

Sevinir ürəklər, fərəhlə vurur,
Necə gözəl şeydir bu milli qürur!!!
Xalq-Komandan-ordu bir vəhdət, onur,
Hər gün düşmən tankı..., sanki üründü,
Ey, gözünüz aydın, o gün bu gündü.

Millət bütövləşib, bir yumruq olub,
Sevinc içindədir, gözləri dolub.
Xəyal etdiyimiz çim quyruq olub,
Bakı da, Şəki də bayraq büründü.
Ey, gözünüz aydın, o gün bu gündü.

Tanrım, bu şadlığı bizə yaşatdın.
Şərəfsiz urvatı üstümdən atdım.
Ta köçkün deyiləm, məni ucaltdın,
Bax, diz çökür düşmən: telegörüntü,
Ey, gözünüz aydın, o gün bu gündü.

Şəhid qəbri görsəm, mən diz çökürəm,
Qaziylə görüşsəm, alnın öpürəm.
Komandana hər vaxt dua edirəm,
Bu günün ibadət vaxtı indidi,
Ey gözünüz aydın, o gün bu gündü.

Dost bilin şadlanan Ağaverdini,
Ona qovuşdurduz doğma kəndini.
İmtahan eyləyir şair könlünü,
Torpağa sarıldı, dizdə süründü,
Ey gözünüz aydın, o gün bu gündü.

27.10.2020

ŞƏHİD İGİDİM

Şəhid olmağını qəlbin buyurdu,
Məzarına qurban olum, şəhidim,
Gəzmədiyin, görmədiyin bu yurdu,
Yaddaşına necə yazdın, igidim.
Məzarına qurban olum, şəhidim.

Görməmişdin yurdu, görməyəcəksən,
Nişan verəcəydin, verməyəcəksən,
Pərişan saçları hörməyəcəksən.
Haqqını halal et, halal, igidim,
Məzarına qurban olum şəhidim.

Fəda olmaq üçün vətəni seçdin,
Vətən üçün cavan canından ķeçdin.
Kəfəni bayraqdan əyninə biçdin,
Bu yurdu sən necə sevdin igidim,
Məzarına qurban olum, şəhidim.

Yarımçıq qalıbdı nişanın, toyun,
Vətən övladları olacaq soyun.
Bəsdir, ədavəti kənara qoyun,
İstəmirəm şəhid olsun igidim,
Məzarına qurban olum, şəhidim.

Atəş oldun, sipər oldun canınla,
Bu torpağı sən suvardın qanınla.
Bu xalq, millət qürur duyur şanınla,
Vətəni canından əziz igidim,
Məzarına qurban olum şəhidim.

09.12.2021

100 İLƏ QALDI

Hayastanın halvasını çalmışıq,
Qazlı-qozlu havasını almışıq.
Elə dərdə, elə hala salmışıq,
Özünə gəlməyi 100 ilə qaldı.

Mini yox e..., millət dönüb xainə,
Kömək olmaz, gündə dursa ayinə.
Tovbə etsə, bəlkə səhvdən yayına,
Hayın düzəlməyi 100 ilə qaldı.

Bir-birinə girişiblər, nə yaxşı,
Yaman yerdə ilişiblər, nə yaxşı.
Qarabağdan sivişillər, nə yaxşı,
Yüzdən bir şənlənmək... o hələ, qaldı.

Unutmayın Xocalının ahını,
Süngülərlə öldürdünüz zahını.
Tanıyarsız müsəlman allahını,
Zülümlər törədən nə zülmə qaldı.

Biz köçkün düşəndə çıxdıq boş əllə,
Başımız üstündə mərmi və güllə.
Sizsə möhnət ilə, hiyləylə, dillə,
Daha hiylə keçmir, yol dilə qaldı.

Dövlət qurubsunuz, kimin torpağı?!
Başa keçirirsiz quldur, axmağı.
Bir düşünün, önə qoyub papağı,
Yoxsa nicatınız qəndilə qaldı.

Tövbə edin, dönün Azərbaycana,
Ya da səpələnin geniş cahana.
Qayıdın, qayıdın dinə, imana,
Xilasınız düzgün əmələ qaldı.

13.09.2021

VƏTƏN SAĞ OLSUN

Əziz qonaq bildik, çox açdıq süfrə,
Hay da qonaq edir çoxlu smerçə.
Həyatın itirdi az yaşlı körpə,
Yaralı qardaşım, kədərli bacım
Gəncəli qardaşım, Tərtərli bacım.

Atəşkəs istədi, yola verildi,
Özünə boy verdi, boyu gərildi.
Sanki cana gəldi, sanki dirildi,
Məhv oldu ev-eşik, gəlinlik tacın,
Bərdəli qardaşım, Gəncəli bacım.

Toxtaq tut özünü, vətən sağ olsun,
Ordumuz öc alır, üzü ağ olsun.
Gücünə güc qataq, gücü dağ olsun,
Nisgilli qardaşım, yaralı bacım,
Gəncəli qardaşım, Bərdəli bacım.

Toxtaq tut özünü, bitər bu sitəm,
Şuşa azad olur, dəyişir gündəm.
Dinc sakin vurmuruq, bax budur ərdəm,
Düşmənlər gəbərir, azalar acın,
Bərdəli qardaşım, Gəncəli bacım.

Döyüş meydanında alınır qisas
Dron hədəf seçir, bir səbrini bas.
Dəliyə girirlər, düşüb basabas.
Yumruq kimi birik, "səhifə" açım,
Yeni tarix yazaq qardaşım, bacım.

Bir şərəf yaşadır bizə yaradan,
Zəfərə çatdırıb fateh komandan.
Yaxamız qurtarır bu vandallardan,
Xoş müjdə verməkdir arzum, amacım,
Allahım yar olsun qardaşım, bacım.

Ağaverdi öyün, öy ordumuzu,
İşğaldan qurtarır yer-yurdumuzu.
Dünyaya tanıdır qürurumuzu,
Duam var, sağalın, duam-əlacım,
Güvən ümidinə qardaşım, bacım.

ALİ BAŞ KOMANDANA

Sevincdən ürəyim partlaya bilər,
Bağırsam qayalar çatlaya bilər.
Nəfəsim dağ-daşı odlaya bilər,
İcazə ver, səni bağrıma basım,
Sinəmin üstündən şəklini asım.

Bir sınaq meydanı olmuşdu Tovuz,
Azca tüğyan etdi şanlı ordumuz,
Yalvardı, yaxardı bədnam qonşumuz,
İcazə ver, səni bağrıma basım,
Müzəffər şəklini sinəmdən asım.

Sənin əsərindir azad Qarabağ,
Odur dalğalanır üçrəngli bayraq.
Dünəni xatırla, gələcəyə bax,
İcazə ver, səni bağrıma basım,
Müzəffər şəklini sinəmdən asım.

Sevincdən ölmədim, yaxşı ki, sağam,
Mən indi yayından sıyrılmış oxam.
Gedəcəm Şuşadan cahana baxam,
İzazə ver, səni bağrıma basım,
Müzəffər şəklini sinəmdən asım.

Bizim şərəfimiz tapdalanmışdı
Xocalıda «mənlik» axtalanmışdı.
Qanımız damarda laxtalanmışdı,
Bir daha sızlamaz kamanım, sazım,
İcazə ver, səni bağrıma basım.

Bayrağa bürünüb bu gün yurdumuz,
Şanlı tarix yazdı şanlı ordumuz.
Ali baş komandan-xalq qürurumuz,
İcazə ver, səni bağrıma basım,
Sinəmin üstündən şəklini asım.

Azaddır Qubadlı, Füzuli, Ağdam,
Zəngilan, Cəbrayıl..., yoxsa da sağ dam.
Kərəminə şükür məni yaradan...,
Dillənsin tar, kaman, çalınsın sazım,
İcazə ver səni bağrıma basım.

Ali baş komandan-müdrik şüurum,
Şərəfli qələbəm, milli qürurum.
Bu müzəffər ordu sənin uğurun,
İcazə ver Səni bağrıma basım,
Qəhrəman şəklini sinəmdən asım.

Alınıb, bizdədi, Kəlbəcərimiz,
Nura qərq olubdu tutqun çöhrəmiz,
Dünyaya səs salıb bu zəfərimiz,
Dillənsin tar, kaman, çalınsın sazım,
İcazə ver səni bağrıma basım.

Ey məşhur general Mais Bərxudar,
Yol ver Qubadlıya, sənsən ixtiyar.

Yolumu gözləyir o cənnət diyar,
Çatım kəndimizə, bir nəfəs dərim,
O viran bağımı əkim, becərim.

Ayağı sayalı generalımız,
Hikmət Mirzəyevi sevir xalqımız.
Sizi əziz tutmaq bizim haqqımız,
Siz qəhrəmansınız, müsəlləhsiniz,
Sizinlə doğruldu milli əhdimiz.

Hər bir əsgərimiz baş tacımızdır,
Onların varlığı qazancımızdır.
Onlar qürurumuz, yaşancımızdır,
Onlarla fəxr edir ana yurdumuz,
Dünyaya səs salıb şanlı ordumuz.

Ərdoğan-Əliyev, ər oğlu ərsiz,
Bu elə, bu yurda arxa, sipərsiz.
Möhtəşəm, yenilməz, çox müzəffərsiz.
İstərəm mən Sizi bağrıma basım,
Qoşa şəklinizi sinəmdən asım.

Çox-çox minnətdaram Çavuşoğluna,
Heyranam şəxsinə, kəskin ağlına.
Qonaq çağıracam Hərtiz dağına.
İstərəm onu da bağrıma basım,
Doğmalıq, qardaşlıq, bir örnək yazım.

Ey başına dönüm Ulusu Akar,
Yolunu gözləyir bu gözəl diyar.
Sən onlara yar ol, ey pərvərdiyar,

Gəlsinlər, onları bağrıma basım,
Doğmalıq, qardaşlıq, bir örnək yazım.

Sizin məramınız alidir , bildim
Məqam var məqamın həllidir, bildim.
Mənim də məqamım bəllidir , bildim
İstərəm mən sizi bağrıma basım,
Qoşa şəklinizi sinəmdən asım.

Ali baş komandan, Ağaverdiyə
Söz verin, fikrini alın ciddiyə.
Mən də qardaş olum Sizin cütlüyə,
İcazə verin ki, bağrıma basım,
Qoşa şəklinizi sinəmdən asım.

BU XƏZƏLLİ PAYIZ

Kövrək inancımdı gələcək zəfər
Ümidim, güvənim illətim oldu.
Gözüm yol çəkirdi, qulağım xəbər,
İyirmi yeddi payız zillətim oldu.

Mənə güc versə də qənaətlərim,
Hər il təzələndi qəmim, kədərim.
Gümanlı, gümansız düşüncələrim
O ildən bu ilə minnətim oldu.

Qışda xəstələndim, yayda sağaldım,
Yazda şiddət vardı, kəfən ağ aldım .
Elə uşaqlıqdan bir az dağaldım,
Bu xəzəlli payız cənnətim oldu...

Payız gələn kimi durdum ayağa,
Ta lüzum görmədim qoşa dayağa.
Canım ordumuza olsun sadağa,
Bu xəzəlli payız Günnütüm[1] oldu.

Zehnim də açılıb, saat tək vurur,
İçimdə böyüyür bir şıltaq qürur.
Gözümə göz baxır, gözlər də büllur,
Bu xəzəlli payız büsbütün oldu.

Şükür, bütövləşdi yurdum, torpağım,
Hər yerə sancılıb zəfər bayrağım.
Ağaverdi sevin, gəlib növrağın,
Bu xəzəlli payız çox üstün oldu.

06.12.2020

[1] *Günnüt kənd adıdır. Naxçıvanda yerləşir. 1992-ci ildə ermənilər işğal edib. 20-27 may 2018-ci il tarixlərdə Ali Baş Komandanın rəhbərliyi altında Günnüt əməliyyatı həyata keçirilib. Bu əməliyyat nəticəsində Günnüt kəndi, «Ağbulaq» yüksəkliyi, «Qızılqaya» dağı və «Qaraqaya» dağı daxil olmaqla 11 min hektar ərazi işğaldan azad edilib. Bu əməliyyat polkovnik-leytenant Haqverdi Xudaverdi oğluna tapşırılıb və əməliyyat qüsursuz yerinə yetirilib.*

ŞOTLANLININ GÖBƏYİNDƏ YER ALDIM

Müharibə bitib, yollar açılıb,
Qubadlının gədiyində yer aldım.
Bir quzuymuş, cəmdəyindən asılıb,
Üçayağın bəndliyində yer aldım.

Söykənmişdik, uçuq evin daşına,
Ocaq çatıb, dolanmışdıq başına,
Göz dikmişdik ətir saçan aşına,
Həmyerlimin mərdliyində yer aldım.

Çox da yubanmadım kollu dərədə
Ayağım islandı arxda, bərədə.
Suqovuşan adlı bu mənzərədə
Nişangahın tətiyində yer aldım.

Baĺa verib, mən tanıdım qulanı,
Səkil idi, yorğa idi nişanı.
O hayqırdı, gördüm, gələn tulanı,
Kəhər atım yedəyimdə yer aldım.

Sazaq var, büründüm mən axşam-axşam,
Burdakı soyuğa yadırğamışam.
Mənə soyuq oldu gərək yığışam,
Soyuq hava sərtliyində yer aldım.

Ağaverdi yönəlmişdin dağlara,
Çox bağlısan bu xurmalı bağlara.
Şükür olsun, bu bəxtəvər çağlara,
Şotlanlının göbəyində yer aldım.

28.12.2020

QAN AĞLAYIR ERMƏNİSTAN

Elə saya çatıb ölü,
Bax, laxlayır Ermənistan.
Küçələrdə, meydanlarda,
Yas saxlayır Ermənistan.

Analar oğul axtarır,
Gəlinlər ərin axtarır.
Bacılar qardaş axtarır,
Baş bağlayır Ermənistan.

Yiyəsi var Qarabağın,
Türk qövmüdür solun-sağın.
Alammadı alacağın,
Söz yağlayır Ermənistan.

Ağaverdi, gəldi anı,
Sən nəzmə çək olanları.
Doğrulmadı yalanları,
Qan ağlayır Ermənistan.

2021

ERMƏNİDİR

Qaĺdığı evi yandıran,
Yediyi qabı batıran,
O şərəfsiz, o şarlatan
Ermənidir, erməni...

Qonşusuna dönük çıxan,
Xəlvət yerdə ənik çıxan,
Güclü görsə, sönük çıxan,
Ermənidir, erməni...

Kəlbəcərdə, ya Laçında,
Minaladı öz xaçın da.
Doğradı bar ağacın da,
Ermənidir, erməni...

Xarabalıq bayquşudu,
Şeytan, çuğul qarğışıdı.
Cəhənnəmlik baxışıdı,
Ermənidir..., erməni.

Cəbrayıl, Füzuli, Ağdam,
Səhralaşıb bu gülüstan.
Əməlindən barı utan...
Ermənidir, erməni.

Baltan kəssə, sapın da gör,
Ermənini qapında gör.
Yaxşısın öz safında gör,
Ermənidir, erməni...

İşi qalıb bir allaha,
Qan gördüsə, qorxur daha.
Zalımdan da zalımdı ha,
Ermənidir, erməni....

İmkanlıya çiyni çuldu,
Dini, ya imanı puldu.
O kölədi, ya da quldu,
Ermənidir, erməni...

Ağzında qaldı şirəsi,
Dünyanın ilk fahişəsi,
Baş ağrısı, əndişəsi
Ermənidir, erməni...

Ar bilməyib, hey sülənən,
Marafonla pul dilənən,
Qapılarda o küllənən,
Ermənidir, erməni...

Çoxdan satıb öz mənini,
Urvatlı et öz şənini,
Millət, tanı düşmənini,
Ermənidir, erməni...

ÖZÜNLƏ GÖTÜR

Şuşanın azad edən igidlərimizdən biri polkovnik Haqverdi Dadaşova ithaf olunur.

Qardaşoğlu dayan, məni bir eşit,
Məni də sən apar, yanında olum.
Kah qabağa ötür, gah arxanda tut,
Qadan məni tapar..., yanında olum.

Ürəyimi verim, özünlə götür,
Şuşanı alanda yanında olum.
Gah sağ çiyninə at, gah sola ötür,
Bayraq sancılanda yanında olum.

Məni aparmırsan, gözümü götür,
Görən gözün olum, gözətçin olum.
Axı əmanətsən, həqiqət budur,
Şəhid Teymur olum, ya Elçin olum[1].

Gözümü rədd etsən, ruhumu götür,
Ruhunla birləşim, kaş yaxın olum.
Sən bürün ruhuma, cismini örtür,
Dövrəndə sipərin, dayağın olum.

Könlümü, ruhumu, gözümü götür,
Sən zəfər çalanda böyründə olum.
«Əmrin icra oldu !» , sözümü götür,
Mən də baş komandan fövqündə olum.

Bilirəm igidsən, qorxmazsan, ərsən,
Məni naçar qoyma, qurbanın olum.
Bilirəm, vətənin sevən əsgərsən,
Başına dolanım, qalxanın olum.

Ürəyimi verim, özünlə götür,
Şuşanı alanda yanında olum.
Gah sağ çiyninə at, gah sola ötür,
Bayraq sancılanda yanında olum.

[1] *Şəhid Teymur və qazi Elçin bacım oğlanlarıdır.*

Kəndimiz alındı, sən orda varsan,
Mən də orda varam, ruhum da, can da.
Səninlə fəxr edir, o kənd, o orman,
Səninlə fəxr edir Azərbaycan da.

23.10.2020

DÜNYANIN DADINI ÇIXARAQ

Gəlin qarşılayaq çərşənbələri,
Yeni dövran gəlir, yeni çağ qardaş.
Açın qapıları, pəncərələri,
Dünyanın dadını çıxaraq qardaş.

Günəş əsirgəmir öz şüasını,
Qarışqa tərk edir qış yuvasını,
Duyub ilk baharın xoş havasını,
Dünyanın dadını çıxaraq qardaş.

Allahın lütfüdür zəfərli illər,
Utancdan qurtulub ürəkli dillər.
Sevinc qaynağıdır sevən könüllər,
Dünyanın dadını çıxaraq qardaş.

Sevərək danışaq, ürəkdən gülək,
Bizi çaşdırmasın hər "meh", hər "külək".
Qoy bizi coşdursun xoş arzu, dilək,
Dünyanın dadını çıxaraq qardaş.

Qardaş tək sarılaq, dost tək anlaşaq,
Səmimi görüşək və sağollaşaq.
Hər dərdi, bəlanı birlikdə aşaq,
Dünyanın dadını çıxaraq qardaş.

Oğul evləndirək, gəlin köçürək,
Ədəblə, ərkanla öyünək gərək.
Qoy düşmən xar olsun, sevinsin ürək,
Dünyanın dadını çıxaraq qardaş.

Yara var sarıyaq, "qaysaq" soymayaq,
Namərdə, paxıla, bicə uymayaq
Tənəli sözləri yaxın qoymayaq,
Dünyanın dadını çıxaraq, qardaş

Qələbə payızın, müjdə yazındı,
Qoşmaq da, coşmaq da ulu sazındı.
Ruhum dilə gəlib, sözüm qızındı,
Dünyanın dadını çıxaraq qardaş.

Ağaverdi yazır mədhiyyəsini,
Aləmə duyurur qalib səsini.
Hər insan qoy sevsin öz ölkəsini,
Dünyanın dadını çıxaraq qardaş.

2020

KİŞİ FƏRD OLAR

Kişilik adına çox söz deyilir,
Adam kişi olar, kişi mərd olar.
Kişinin verdiyi qərar çeynənməz,
Kişi dönməz olar, kişi sərt olar.

Şuşada boy verdi kişi vüqarı,
Kişilər fəth etdi qayalıqları.
Kişilər tanımaz nə sədd, nə barı,
Düşmənə gözdağı, ağır dərd olar.

Əlbəyaxa «döyüş» oldu bir dəyər,
Cahanşümül qiymət aldı bu hünər.
Qızlar vəfalıymış, əsgər müzəffər,
Qadın sadiq olsa, kişi fərd olar.

Əsil də, nəsil də ələndi bir-bir,
Müharibə səbəb, zamansa xəlbir.
Ayıldı, sayıldı, xalq oldu əlbir,
Millət olmaq üçün birlik şərt olar.

Dünya çox qarışıb, hamı tərəfdir.
Vətəni qorumaq ali görəvdir.
Qeyrətli, qürürlu olmaq şərəfdir,
Millət kütlə olsa, daim pərt olar.

«DƏMİR YUMRUQ»

Dəmir yumruq, xarı bülbül, qələbənin sorağı,
Yayılıbdı dörd bir yana, olub bir göy qurşağı.

Səhər çağı, Novruz günü, o meydanda toplaşın
Biz bölüşək, biz paylaşaq bu zəfəri, bu çağı.

Gözlərimdən sevinc yaşı səpələndi sinəmə,
Öpüb qoydum gözüm üstə dalğalanan bayrağı.

O «Aprel»dən, o «İyul»dan, o «Valday»dan başladı,
Tonqal çatın, məşəl tutun, yandırın ağ çırağı.

Əlbəyaxa döyüşlərdən doğulubdu Şuşamız,
Bir cənnətə çevriləcək hər bağçası, hər bağı.

Qayıdışa təməl qoydu, yenilməzdir Komandan,
Minalardan təmizlədir hər küncü, hər bucağı.

Ağaverdi köçün çatıb, sən də şükr et rəbbinə,
Günümüzün şeirini yaz, boş qoyma ağ varağı.

EY İGİDİM, EY ŞƏHİDİM

(Birinci Qarabağ Müharibəsinin şəhidi bacıoğlum Teymur Aslanova həsr olunur.)

Dönmüsən dost, qardaşıma,
Özəl könül sirdaşıma.
Hopmusan qan yaddaşıma,
Ey igidim, ey şəhidim
bacıoğlum.

Şəhidliyin uca oldu,
Oğlun, qızın necə oldu?!
Gündüzlərin gecə oldu,
Ey igidim, ey şəhidim
bacıoğlum.

Qızın Süsən ana olub,
Nəvən məktəb yaşa dolub.
Qəbrinə gül düzüb..., solub,
Ey igidim, ey şəhidim
bacıoğlum.

Sevgilin yasda boğuldu,
Dərd-qəmdə bişdi, yoğruldu.
Oğlun qüsurlu doğuldu.

Ey igidim, ey şəhidim
bacıoğlum.

Biz dönürük kəndimizə,
Sar qonub sərhəddimizə..
Köçün yaddır dinimizə,
Ey igidim, ey şəhidim
bacıoğlum.

Ordu aldı qisasını,
Düşmən çəkir cəzasını.
Uddum kəndin havasını,
Ey igidim, ey şəhidim
bacıoğlum.

Oxuduğum quran ola,
Yaşadığım Turan ola.
Kaş yoxluğun yalan ola,
Ey igidim, ey şəhidim
bacıoğlum.

Qayıdasan..., bir anlığa,
Çəkiləkbir amanlığa,
Dəyər verək, yamanlığa
Ey igidim, ey şəhidim
bacıoğlum.

Qayıdasan..., bir əfsanə,
Mən olaram bir pərvanə.
Çox faniymiş bu zəmanə,
Ey igidim, ey şəhidim
bacıoğlum.

Ayrılığa çətin dözdü,
Anan sənsiz özün üzdü
Ölümüylə müşkül çözdü,
Ey igidim, ey şəhidim
bacıoğlum.

Baş tacımsan, qürurumsan,
Xoş xatirəm, uğurumsan.
Unudulmaz Teymurumsan,
Ey igidim, ey şəhidim,
bacıoğlum.

07.10.2021

2 7 8 3 şəhid

2783 insan,
Biz Sizə borclandıq, vətən borcumuz.
2783 sübhan,
Halallıq eyləyin, bitsin suçumuz.

2783 kişi,
Şəhidlər zirvəyə tez ucalırmış.
2783 nəşi,
10 milyonluq bir xalq yola salırmış.

2783 ömür,
Şəhid anaları aşkar ağlamaz.
2783 qəbir,
Yara dərindədir, qaysaq bağlamaz.

2783 oğul
Qanınız suladı vətən torpağın.
2783 ağıl
Şərəfə çatdırdı dövlət bayrağın.

2783 sevgi,
Yarıda qırıldı, zirvələnmədi.
2783 ilgi,
Nakamlıq gətirdi, cilvələnmədi.

2783 qeyrət,
Şöhrətə yüksəldı, şöhrət güdmədi.
2783 heyrət,
Dünyanı mat qoyub, hikməti nədi?

Qız var ürəyində bir ər becərdi,
Şəhid sevgisinə kəfən də biçdi.
Öğul böyüdərdi, qız köçürərdi,
Analıq haqqını vətənə keçdi.

Sözün də vücudu, canı var, diri,
Söz var müqəddəsdir, söz var sözlükdür.
Ölmək var, əcəldi, sıradan biri,
Şəhidlik zirvədir, ölümsüzlükdür.

İki min yeddi yüz səksən üç şəhid,
Şanın, şəhadətin, adın mübarək.
İmtahandan keçdi istiqlaliyyət,
Əzmin, istiqlalın, andın mübarək.

08.12.2020

ÖZÜM QƏRİBƏM *(və ya 27 sentyabr)*

Səsimin tonunda bəlkə sezilməz,
Gah ləm axan çaydır..., üsyandır bir dəm.
Yurdum viran olub, çaylar keçilməz...,
Adım Qərib deyil, özüm qəribəm.

Üst-başıma baxıb, səfildi demə,
Səfilə bənzədib qafildi demə.
Birdən aydın olar arifdi demə...,
Adım Qərib deyil, özüm qəribəm.

Bir ümidə dönüb sentyabrım,
Bu hərb o hərb deyil, dəyişib durum.
Bir müjdə verəcək hərbim - uğurum...,
Adım Qərib deyil, özüm qəribəm.

Yetişməmiş sünbül heç vaxt biçilməz,
Çayı soyudarlar, qaynar içilməz.
Nəticəsiz vədlər heç vaxt seçilməz,
Adım Qərib deyil, özüm qəribəm.

Çox şeylər vəd edir bu müharibə,
İç dünyamı dinlə, baxma qəribə...
Yazığın gəlməsin naşı qəribə...,
Adım Qərib deyil, özüm qəribəm.

Bir eldən, obadan, qəbilədənəm,
Bir gün qayıdacaq o keçmiş dönəm.
Qıvrılam, hayqıram, başına dönəm,
Adım Qərib deyil, özüm qəribəm.

Ağaverdi, sənin halına yandım,
Həkəri çayında qana boyandım...,
Qəflət yuxusundan sanki oyandım...
Adım Qərib deyil, özüm qəribəm.

27.09.2020

EVİMİN DİVARIN MİNAMYOT DEŞİB

Burda motal pendir, yağ basdırmışdıq,
Eyvan didik-didik, donuzlar eşib....
Bir çən buğda idi, bir çən də arpa,
Evimin divarın minamyot deşib.

Mən nə ağlamaram, nə də gülmərəm,
Bədnam qonşularla fikir bölmərəm.
Mən necə davranım, hələ bilmərəm,
Evimin divarın minamyot deşib.

Evlər uçuq - sökük, əsl xaraba,
Ürək tab gətirməz belə əzaba.
Bu lənət olmuş hay nəyimiş, baba,
Evimin divarın minamyot deşib.

Çöldə quyum vardı, bircə o qalıb,
Baltamı, dəhrəmi kolluqda salıb.
Quyumun suyu da xeyli azalıb,
Evimin divarın minamyot deşib.

Evimin içini kol-kos bürüyüb,
Kərəntim pas atıb, sapı çürüyüb,
Yaxşı ki, yolları S100 kürüyüb,
Evimin divarın minamyot deşib.

Kərpicləri söküb arxa hasarda,
Qapı-pəncərəmi satıb bazarda.
Bir deşik yaradıb sağ yan divarda,
Evimin divarın minamyot deşib.

Bir əlamət yoxdur taya yerindən,
Tövləmi söküblər lap məhvərindən.
Mina var, keçmədik həndəvərindən,
Evimin divarın minamyot deşib.

Cəviz ağacımın yanıb kötüyü,
Yanğın sevindirib bir hay düdüyü.
Haramdı 30 il ömür sürdüyü,
Evimin divarın minamyot deşib.

Almanın, heyvanın yerləri itib,
Onların yerində yasəmən bitib.
Hayı iflic vurub, ağlın keyidib,
Evimin duvarın minamyot deşib.

Tank qənimət qalıb, bax Qaşbaşına
Gülləni çaxıblar pirin daşına.
Haylar zəhər qatıb könül aşıma,
Evimin divarın minamyot deşib.

Viranəyə qalsın Ermənistanı,
Viranə eyləyib, bax, dörd bir yanı.
İlan dili tökdü, aldı amanı,
Evimin divarın minamyot deşib.

İtimin damını çox göz edəcəm,
Padoş üz haylar var, qonaq edəcəm.
Ağaverdi deməz qonaq gedəcəm,
Evimin divarın minamyot deşib.

10.05.2021

MƏNİM DÜNYAM

Mənim dünyam-xəyal evim,
Nəhayətsiz səma kimi.
Ölüm-ac qurd,
azğın, harın sima kimi.
Həyat şirin,
Ölüm-mütləq,
Ömür sürmək ölüm-dirim.
Tanrı uca,
tanrı böyük.
Qüdrətlidir, yaradandır.
“Tanrı yoxdur” demək günah,
Bu yer, bu göy haradandır?!
Dartışmalar mənlik deyil,
Çarpışmalar mənlik imiş.
Sən qarışma, sənlik deyil,
Vuruşmalar mənlik imiş.
Bacım oğlu şəhid olub,
Bizim nəsil yurd sevəndir.
Qisasıma şahid olub,
Tanrım məni istəyəndir.

İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN ÖNCƏ YAZILANLAR

MƏKTƏBLİNİN ARZUSU

Yurdumuzun işğalına yas tuturuq. Bəsdir daha!
Düşmənlərin töhmətini hey uduruq. Bəsdir daha!
Səbrimizi mürgülərlə uyuduruq. Bəsdir daha!
Bizə miras saxlayıblar döyüşləri,
Dayandırın, dayandırın görüşləri.

ATƏT gəldi, ATƏT getdi öyünürük. Niyə axı?
İvan bizi dəstəkləyir, sevinirik. Niyə axı?
Qeybət edib, xısınlaşır, deyinirik. Niyə axı?
Təkrar edin «APREL» adlı döyüşləri,
Dayandırın, dayandırın görüşləri.

Gündən aya, aydan keçdi, ilə qaldı. Olmaz belə.
Düşmən belə halımızdan qüvvət aldı. Olmaz belə.
Gah Şuşada, gah Laçında lövbər saldı. Olmaz belə.
Öz gücünə udmalıyıq döyüşləri,
Dayandırın, dayandırın görüşləri.

Yurda sarı yola çıxdı, gözdən itdi Həsən kişi,
Yurd murazı gözündəcə ölüb, getdi Həsən kişi,
Kim dözsə də, o dözmədi. Ömrün bitdi Həsən kişi.
Kim yoluna qoyacaq bəs bu işləri,
Bizə miras saxlayıblar döyüşləri.

Bizim alın yazımızdır igid olmaq. Bu bir şərəf.
Qazi olmaq, qələbəyə şàhid olmaq. Bu bir şərəf.
Şan-şərəfdir, yurd uğrunda şəhid olmaq. Bu bir şərəf.
Nəticəyə körükləyək gülüşləri,
Təkrar edək APREL kimi döyüşləri.

Yaşıdlarım, döyüşməli olacağıq. Hazırlaşın.
Fərqi yoxdur öləcəyik, qalacağıq. Hazırlaşın.
Fərq odur ki, biz qələbə çalacağıq! Hazırlaşın.
Bizə miras saxlayıblar bu işləri,
Hazırlaşın, biz başlayaq döyüşləri.

QAÇQIN ANA

(Radioya müsahibə verən səkkiz oğul anasını dinləyərkən)

Qaçqın ana, sənin arzun, istəyin
Çox miskindi tamahların fövqündə.
Yurd həsrətin, vətən eşqin yazıqdı,
Xəcil olur maraqların zövqündə.
Çox miskindi tamahların fövqündə.

İgidin var, övladın var, ərin var,
Şöhrətin var, qeyrətin var, arın var.
Həyat dünən, həyat bu gün, yarın var,
Gəl, yalvarma bir kimsənin önündə.
Səni çox-çox uca tutur dinin də.

Səkkiz oğul bir ordudur döyüşsə,
Səkkiz oğul bir müşküldür büzüşsə.
Əcdadımız qanla yuyub, qan düşsə,
Hay qonşumuz düşmən olub, çöndülər,
Yaman bizdən yamanlıqla döndülər.

Şuşa getdi, keçmişimiz büt oldu,
Laçın getdi, qeyrətimiz küt oldu.
Xocalıda namusumuz lüt oldu,
Dik baxa bilmirik üz-gözünüzə,
Həsrətik, düz baxaq, düz gözünüzə.

Axı torpaq azad olmaz sarayda,
Geri dönək..., arzuladıq hər toyda.
Ömrü kəsib calamaqdan nə fayda,
Gör, nə günə qalmışıq biz, ay allah,
Hərbsiz verməz bir nəticə, bu vallah.

Lap Hayastan üzümüzə ağ olsun,
Gülüstanda təki ərzaq, yağ olsun,
O BMT, bu da ATƏT «sağ olsun»,
Atəşkəsə əməl edin deyirlər,
Bizimkilər vaxt tapsalar söyürlər.

Qubadlının çayları var, ağlayır,
Zəngilanda Çinarlıq yas saxlayır.
Cəbrayılda vaxtı yağı yoxlayır,
Yurdun qoçaq oğulların boğdular,
Qorxaqlar da qorxaq oğul doğdular.

Şəhidlərə şəhid bəxtin kim yazdı,
Ölümləri düşmənlərə gor qazdı.
Yaraları qövr elədi, qan sızdı,
Şəhidlərlə o öyünən oğullar,
Yəqin bir gün birləşərlər, yığıllar.

Bu atəşkəs, sülh oyunu pərdədir,
Nicatımız oğullarda, ərdədir.
Hələ ümidimiz ətəklərdədir,
Yazıq günümüzə, yazıqlar olsun,
Gücümüz quru söz, qıcıqlar olsun.

Şəhriyar da dərdimizi çox çəkdi,
Misra-misra mənalanmış söz əkdi.
Fikri-zikri birləşməkdi-diləkdir,
İnanırdı bu xalq bir gün oyanar,
Düşmənlərlə qarşı-qarşı dayanar.

TOPDAĞITMAZ VAR

Tamahlanıb ağacların barına,
Meyvələri biz yığardıq qarına.
Görüşməkçün, qovuşmaqçün yarına,
Xan çinarın sıx kölgəsi var imiş.

Çıxammıram sevgilimin önünə,
Qarşı çıxdım sağlam ruhlu yönünə.
Məhləmizi bənzətmişdi Pekinə,
Bu gen dünya Bakımızda dar imiş.

Eşqin iztirabı bir az intizar,
Bir az ləm göl kimi..., aşiq aldanar,
Baxırsan gözəldir, batırsan qəddar,
Aşiq var gözü «kor», qulaq «kar» imiş.

Bu dünyanın hər üzünü gömüşəm,
Vəfasızın mən yüzünü görmüşəm.
Eşqin telin şairanə hörmüşəm,
Məni sevən bir vəfalı yar imiş.

İşıq gəlib gözlərimin ağına,
Xəzan keçməz ürəyimin bağına.
Gözmü dəyər bu «şəlalə axına»,
Mənim sevgim topdağıtmaz var imiş.

İSTƏMİR Kİ

Sevgi elə şeydir çox ünvanı var,
Sevgidən danışmaq taxt istəmir ki.
Səhər də, axşam da danışsaq..., olar
O könül işidir, vaxt istəmir ki.

İlk sevgi anadan, atadan gəlir,
Bacıyla qardaşla qana yüklənir.
Eşqlə, məhəbbətlə elə köklənir,
Deyirsən qismətdir, baxt istəmir ki.

Sevgidə təmənna olmalı deyil,
Sitəm görsə belə solmalı deyil.
Nəsibin nakamlıq almalı deyil,
Behə gərək yoxdur, nağd istəmir ki.

Məndən əsirgəmir allah eşqini,
Eşqiylə başlayır duam məşqini.
Ağaverdi, yönəlt haqq aşiqini,
Savab iş görərsən, akt istəmir ki.

ƏCƏLİN GÖZÜ MƏNDƏDİR

Dünya yenə çalxalanır,
Bir hiddət də içimdədir.
Əcəlin gözü məndədir,
Dünyanın gözü kimdədir?
Bir hiddət də içimdədir.

Kimdir orda qaltaq yonur?
Şahlıq quşu hara qonur?
Səsim batır, qanım donur?
Əcəlin gözü məndədir,
Dünyanın gözü kimdədir?

İnsan oğlu nəfsin qulu,
Yatırıma qoyur pulu.
Yekəxana Həsənqulu,
Deyir göy pul bir məndədir,
Bir tayım da Yəməndədir...

Ölən ölsün, kefinə bax,
Qazan qaynat, kəfinə bax.
Alver elə, nəfinə bax,
Əcəlin gözü məndədir,
Dünyanın gözü kimdədir?

İnsan oğlu, səbr et..., dayan,
Qəflət yuxun varsa, oyan.
Ağaverdi, səni sayan
Bir nəslin gözü səndədir,
Şəxsin mübarək bəndədir.

SARIKÖYNƏK YOX İDİ

Ana, nənə var ikən Sarıköynək yox idi,
Onlara diləkləri, sevgiləri çox idi.
Sarıköynəyi tapan bu vələdə bax indi:
“Anam senə qurban ay sarıköynək”,
“Nənəm senə qurban ay sarıköynək”.

Anasın qurban deyib bildirir ilgisini,
Sarıköynək məmnundu, tapıpdı sevgisini,
Anasın qurban deyən satar öz ölkəsini,
“Anam senə qurban ay sarıköynək”,
“Nənəm senə qurban ay sarıköynək”.

Nənəsin qurban deyib Sarıköynək onundu,
Buna eşq demək olmaz, bir ötəri duyumdu.
Əzəlin toy, çal-çagır, ayrılıq da sonundu,
“Anam senə qurban ay sarıköynək”,
“Nənəm senə qurban ay sarıköynək”.

Anasın qurban deyən sevə bilməz gerçrəkdən,
Axı Ana sevgisin keçirməyib ürəkdən..
Belə mahnı oxuma, övladım, balam mənim,
«Anasını sevməyən Vətənin sevməz» deyim.

Ananı sev, əzizlə, onu qurbanlıq etmə,
Kimsə bir səhvdi deyib, sən də o yolu getmə.
Ana qədrin bilməyən vətən qədrin nə bilər,
Anaya qurban gedən vətən uğrunda ölər.

MƏNDƏ SEVMƏK ÜÇÜN ÜRƏK QALMAYIB

Məndə sevmək üçün ürək qalmayıb,
Məndə güllə üçün kürək qalmayıb.
Axirət günü də bezibdi məndən,
Mənim ölməyimə gərək qalmayıb.

Daha yeriyəndə belim əyilir,
Daha təamlar da mənsiz yeyilir.
Süfrənin şərti də daha pozulub,
Daha sağlıqlar da mənsiz deyilir.

Hökmüm, iradəm də düşüb təpərdən,
Mən daha gəlmirəm uzaq səfərdən.
Məni qarşılamır nə oğul, nə qız,
Əziyyət çəkirəm bir də "şəkərdən".

Məndə sevgi üçün dözüm də yoxdur,
Layiqli əməlim, sözüm də yoxdur.
Daha qocalmışam, sifət qırışıb,
Alamı, qaramı gözüm də yoxdur.

İndi mən baxıram yola, gələnə,
Bəlkə yad edənim, ya gələnim var.
Bəxtəvər deyirəm rahat ölənə,
Yazsam, sevinirəm bir "qələmim" var.

Gözlərim yol çəkir, gələn də yoxdur,
İtirib- axtaran çətin ki, ola.
Mənim bu yaşımda övlad itirmək,
Ölümə bərabər bir şeydir, bala.

Bəxtimə küskünlük, dərd, qəm daraşıb,
Sənin möhnətini çəkə bilmirəm.
Dünyalar böyükdür, məkanlar geniş
Məndən betəri var bəlkə, bilmirəm.

NOVRUZDA

Can-can deyib, can eşidib, anlaşırlar Novruzda,
Bu adətə bu minvalla alışırlar Novruzda.

Pis əməli, pis niyyəti tonqalda yandırırlar,
Niyyət edib firavanlıq, yarışırlar Novruzda.

Nənələrin saxlancları, gizlinləri faş olur,
Həyətlərə nur yayılır, sayrışırlar Novruzda.

Qulaq falı işə düşür, qapı, baca güdürlər,
Məhəbbətə çıraq tutub, alışırlar Novruzda.

Bəzənərək qız oğlanı, oğlan qızı axtarır,
Tapışsalar, bir-birinə qarışırlar Novruzda.

Gediş-gəliş xeyli artır, yad edirlər bir-birin,
Umu-küsü yığışılır, barışırlar Novruzda,

Ağaverdi, kim bilmir ki, xoş niyyət aşiqisən,
Niyyətlərin çin olacaq danışırlar Novruzda.

MƏNİM GECƏLƏRİM

Mənim gecələrim uzanır hər gün,
uğurlu, uğursuz olur gecələr.
Uğurlu günlərdə sevincli, ötkün,
Bəzən də kədərlə dolur gecələr.

Sevincli günlərim xəyallarımda,
Hərdən reallaşır röyalarımda.
Kədərim dövr edir damarlarımda.
Arzu çiçəklərim solur gecələr.

Ayrılıq bilinir uzaq yol kimi,
Mənim intizarım əlil qol kimi.
Üzüntüm əl açır vecsiz yel kimi,
Qəhər tellərimi yolur gecələr.

Mənim ayrılığım məsafəsizdir,
Yön ala bilmirəm əhatəsizdir.
Şəfasız, dəvasız, bəhanəsizdir,
Qəddarmış bu zülmət, qonur gecələr.

Ağaverdi, eşit, od alıb içim,
Pürrəng bir çay qoyaq, doyunca içim.
Cənnət, ya cəhənnəm, yol tapsam, keçim,
Qanım damarımda donur gecələr.

BU SƏNİN TƏRZİN

Sən gülən deyilsən, mən güldürürəm,
Bu mənim istəyim, bu mənim tərzim.
Mən küsən deyiləm, sən küsdürürsən,
O sənin üsulun, o sənin tərzin.

Bu gecə gözümə yuxu getmədi,
Səni anlamağa ağlım yetmədi.
Səncə uzun çəkdi, sevgin bitmədi!?
O mənim üsulum, bu sənin tərzim.

Sən məni düşünmə, özünü üzmə,
Hərdən çay verirdin, onu da süzmə.
Sirli bir dünyanla durdun üzümə,
Bu sənin üsulun, bu sənin tərzin.

Olmaya tanrıdan köməyimmi var?
Müjdə ver, bətnində bəbəyimmi var?
Ayrılıq çəkməyə ürəyimmi var?
Bu mənim üsulum, o sənin tərzin.

«Mən səni sevirəm» deyib duracam,
Bizə xəyalımda bir ev quracam.
Bir gün də yaxandan tutub soracam,
Nə verdi üsulun, nə verdi tərzin?

Gizli bir duyğunun əsirisənmi,
Yarımçıq bir eşqin kəsirisənmi?
Məni ölü saysan, sən dirisənmi?
Bu sənin üsulun, bu sənin tərzin.

Bəlkə qısqanclığın qurbanı mənəm,
Ötəri yaşamın yamanı mənəm.
Qatıb qarışdıran hər yanı mənəm,
Bu sənin üsulun, bu sənin tərzin.

MƏN AZADLIQ QİTƏSİYƏM

Hara gəldi soxulanlar.
Cəhalətdə boğulanlar,
Bu mühitdə yoğrulanlar,
Deməyin İsa Məsihəm,
Mən azadlıq qitəsiyəm.

Ruhum azad, təbim şəndir,
Səmtə gələn, birləşəndir.
Xoşlanmayan goreşəndir,
Maddiləşsəm, bitəsiyəm,
Mən azadlıq qitəsiyəm.

Yola gedin, sülh axtarın,
Marş, ardınca bayraqdarın.
Sizinlədir uca tanrım,
Al bayraqla gedəsiyəm,
Mən azadlıq qitəsiyəm.

Elə bu Yer kürəsiyəm,
Doğruların hücrəsiyəm,
Mən bir tanrı zərrəsiyəm,
Ruhən göydə ötəsiyəm,
Mən azadlıq qitəsiyəm.

Ədalətin carçısıyam,
Məzlumların savçısıyam.
Məlunların "ovçusuyam",
Haqdan çıxsam, itəsiyəm,
Mən azadlıq qitəsiyəm.

DAĞLAR QIZINI

Bir yol əməlindən heç usanmàdın,
Boş qoydun nə qədər bələyi, fələk.
Elə boş gətirdin, dolu apardın,
Bu dəfə boş qaytar şələni, fələk

Əlimdəm almısan dağlar qızını,
Könlüm qan ağlayır illər uzunu...
Yox et bu tilsimi, ərit buzunu,
Sənmi göndərmişdin fələyi, fələk.

Yerlərə sığmadı ömrün boranı,
Qara bulud aldı düzü, oranı.
Gizli gəlib getdi ölüm karvanı,
Sən hardan öyrəndin kələyi, fələk

Göylərə çəkmisən, alıb qarşına,
Mən çoxdan çatmışam ahıl yaşına.
Bir bəla olacam..., bəla başına,
Məndən tez ayırdın mələyi, fələk.

Ayrılıq yandırıb cadar içimi,
Sanki zay olacaq çovdar biçimi.
Ağaverdi başla, səf tut köçünü,
Gözləmə, başlatsın tələni, fələk.

01.09.2001.

SƏNİ TAPMIRAM

Çörək yemisənmi? - Yemişəm, bəli.
Mən çörək tapıram, səni tapmıram.
Çay necə içmisən?- İçmişəm, bəli
Mən çay da tapıram, səni tapmıram.

Hər dəfə sorursan çayı, çörəyi,
Gözəlmi, göyçəkmi?- bu həmşirəyi.
Görməzlikdən gəldim qısqanc ürəyi,
Ürəyi duyaram, səni tapmıram.

Hansı qız- gəlinlər gəldi yanıma,
Canın qurban etdi kimlər canıma?
Bəlkə qan bulaşıb təmiz qanıma,
Könlünü alaram, səni tapmıram.

Xəbərdarsan halım xəstə, didərgin,
Gəl, günümüz olsun bir xeyli gərgin.
Mən də huzur tapım ömrümdə hər gün
Həmdəmin olaram, səni tapmıram.

Heç də usanmırsan, sorğu-sualdan,
Bəlkə usanasan bu pünhan haldan.
Gey kələğayıdan, butalı şaldan,
Toy-büsat quraram, səni tapmıram.

Söylə nə eyləsin bu Ağaverdi,
Onun da adını bir ağa verdi.
O qalan ömrünü sadağa Verdi,
Boynuna sarıllam, səni tapmıram.

DƏYƏRLİ OĞLUM

Düşmən bayrağıydım? Yıxdın, devirdin...,
Dar günümdə mənə arxa çevirdin.
Qabaqlar atanı sən çox sevirdin,
Fikrini təzələ, dəyərli oğlum.

Sən özünə qayıt, yolunu tanı,
Yada sal birlikdə keçən hər anı,
Boynumdan düşməzdin, yad et zamanı,
Ay ayqır kəhəri yəhərli oğlum..

Güldən gül yaranır, gül qanqal olmaz,
İşin bilən adam bil, hambal olmaz.
Həddin bilməyəndə bir sanbal olmaz,
Dili acı oğlum, zəhərli oğlum.

Həyatın hər üzün görüb gəlirəm,
Sonu ölüm olan yol var, bilirəm.
Bir yol öləmmədim, hər gün ölürəm,
Məndən üz döndərən təhərli oğlum.

Kəndimiz azaddır, açılıb yollar,
Üçrəngli bayrağa sancılıb yollar.
Mənə qucaq açan o qoşa qollar,
Niyə heç tərpənmir, şəhərli oğlum.

XOŞNİYYƏTLİLİK

«Hər yerindən duran bir şeir yazır.»
Bu şeir yazmağın nəyi pisdir ki?
Bizimlə bölüşür duyğularını,
Düyğunu bölüşmək pismi hıssdir ki?

Aşkara çıxarıb «eqo»larını,
«Mənım-mənəm» liklə qürrələnirsən.
Qoy bu millət desin dualarını,
Elə öz xoşuna girələnirsən.

Təbrikə gedəndə «qızıl gül» seçdin,
Tullayaq bəs qalan gül- çiçəkləri?!
Mən də gəncliyimdə nə yollar keçdim,
Saymayaq ahılı, ağbirçəkləri?!

Bir gül buketidir çox millətlilik,
Var türkü, talışı, ləzgisi, kürdü.
Bir az gözdən düşüb çoxkülfətlilik
Çinar budaqlarla gözəl, hündürdü.

Döyüşə də bilir, şeir də yazır,
Şairi də çoxdur, sərkərdəsi də.
Gözəl avazlar var, muğamda «azır»,
Bəmi də gözəldir, zil pərdəsi də.

Bir dağa, bulağa biz ayaq bassaq,
Yəqin lövbər sallıq bir gülzarlıqda.
Mənim fikrim budur, qulp axtarmasaq
Lalə də gözəldir, laləzarlıq da.

Xoş niyyətli olmaq nadir duyğudur,
Gərək əl çəkəsən xəbis niyyətdən.
Bu cür xatirələr gözəl uyğudir,
Xeyir allahdandır, müjdə cənnətdən.

KABUS YUXULAR

Yuxumda oturub kətilin üstə,
Nəsə oxuyurdu sönük, ahəstə.
Baxırdı suallı, qınaqlı gözlə...
İfadə eləmək çətindir sözlə.

Sonra baxışları donub gözümdə,
Əlacsız qalırdım əlim üzümdə.
Eləcə baxırdı, baxırdı... dədəm,
Məni qınaqlarda yaxırdı, dədəm.

Məcburi köçkünük, təzə gəlmişdik,
Bir əməlli-başlı yerləşməmişdik.
Heç cür alışmırdı, təzə ünvana,
Qənim kəsilmişdi bizə zəmanə.

«Didərgin salmısan məni evimdən,
Erməni kimidi, etsin yerimdən?»
Yaşlanmışdı dədəm, 100-ə çatmışdı,
Atışma görməyib, xəstə yatmışdı.

Dədirginlik dönüb qorxularıma,
Bir kabus gətirib duyğularıma.
Qovuşmaq istədim, qəbul etmədi,
Daha tablaşmıram yuxularıma...

QORXDUM Kİ...

Getmək istəyirdim dünən yanına,
Bir «vicvicə» düşdü sanki canıma.
Görmək istəyirdim eşq mələyimi,
İntizar çökmüşdü hər bir anıma.

Qapını əlimlə döymək istədim,
Gördüm xəyalımla qəlbi görüşür.
Ağacın qanadın əymək istədim,
əymədim....,
yoluna kölgəsi düşür.

Günəşi geymişdim yandı ətrafım,
soyundum...,

qorxdum ki, oda salaram.
Bir gün alışacaq həsrətim, ahım,
alışsam...,
qadanı ruhla alaram.

Buludu əynimə geymək istədim,
geymədim...,
qorxdum ki, çöl duman olar.
Pünhan gəlməyimi sən istəmişdin,
gəlmədim...,
qorxdum ki, bir duyan olar.

MƏN ÖZÜMƏ MƏZAR TİKDİM

Əməyini öymək üçün
Tibb bacısın nəzmə çəkdim.
Day bilmədim bu şeirimlə
Öz başıma nələr əkdim.

Könlün qırdım gözəlimin,
Ağrısı çox əməlimin.
Dili şirin məzəlimin
Üzü düşdü, mən tər tökdüm.

Dilim-dilim olsun dilim,
Ölüm, itim ilim-ilim?!
Barışarmı, necə bilim?
Mən özümə «məzar» tikdim.

Gülüş gəlsin kaş üzünə,
Təbəssüm qonsun üzünə.
Qurban olaram özünə,
Nəyi tikdim, nəyi sökdüm?!

“Day bir sözüm yoxdur» dedi,
Soğan kəsib, bibər yedi.
Bir səhv idi , oldu, getdi,
Bir söz dedim, min ah çəkdim

Ruhdan düşmə Ağaverdi,
Şirin olur sevgi dərdi.
İncik düşdü, sifət gərdi,
Yas saxlama, demə çökdüm.

ƏSİRLİKDƏN GƏLƏN ŞEİR

1994-cü ilin yanvar ayında Füzuli r-nu uğrunda gedən döyüşlərdə şəhid olmuş polis əməkdaşı bacımoğlu Teymur Aslanov Qubadlı çıxdıqdan sonra kəndimizə gedib, bizim evə baxarkən təsadüfən iki şerimi tapıb mənə gətirmişdi, biri də bu idi...

Ayılın, a qardaşlar,
Bıçaq sümüyə yetdi.
A qardaşlar, a “daşlar”.
Fəryadım ayə yetdi,
Bıçaq sümüyə yetdi.

Sarı-sarı “zəlilər”
Qanıma yeridilər.
Ağılsız ermənilər,
Qanmadı, küyə getdi,
Bıçaq sümüyə yetdi.

Ermənin axmağı,
Qorbaçovun barmağı,
Azərbaycan torpağı
Gör kimə, nəyə bənddi,
Bıçaq sümüyə yetdi.

Xocalıda, Şuşada
Qan hopmuşdu daşa da.
Hay çatmışdı Buşa da...
Kimin dadına yetdi,
Bıçaq sümüyə yetdi.

Kəlbəcər dar gündədi,
Düşmənin əlindədi.
Can dedi, can inlədi,
Imdadı göyə yetdi,
Bıçaq sümüyə yetdi.

Ağdamın bu hayında,
Bakı hay-harayında.
Arazin o tayında
Kim-kimə züyə getdi,
Bıçaq sümüyə yetdi.

Qorxaq başlar hindədi,
Qeyrətləri tindədi.
Füzuli çətindıdi,
Alverçi iyə getdi,
Bıçaq sümüyə yetdi.

Qubadlı qaçan deyil,
Hər küyə uçan deyil,
Vətənsiz can can deyil,
Ümid gümana bənddi,
Bıçaq sümüyə yetdi.

Unudarıq bu dərdi,
Ümid necə gözəldi.
Deyərsən Ağaverdi:
"Arzum ərsəyə yetdi,
Bıçaq sümükdən getdi."

Qubadlı, avqust 1993-cü il.

BAĞIŞLA YURD, BAĞIŞLA EL

On illiyi qeyd olundu işğalın,
Bağışla yurd, bağışla el, bağışla.
Geri alıb Andranik qulağın,
Bağışla yurd, bağışla el, bağışla.

Qeyrətimiz çoxdan düşüb kəməndə,
Topdan satış qiymət alıb Yəməndə.
Bağlı qalıb səmənd atım çəməndə,
Bağışla yurd, bağışla el, bağışla.

On illiyin qeyd elədik "qaçmağın",
Qoru yoxmuş içimdəki çaxmağın.
Qibtə etdim "qürurуna axmağın",
Bağışla yurd, bağışla el, bağışla.

Üz qalmayıb hüzuruna gəlim mən,
Hardan, necə dərd-sərini bilim mən?
Qoy gizlicə göz yaşımı silim mən,
Bağışla yurd, bağışla el, bağışla.

Dadın duyduq Bakıdakı qoğalın,
Qədrin bildik almalığın, zoğalın.
Satan olsa namus, qeyrət çox alın,
Bağışla yurd, bağışla el, bağışla.

Yaz ağzıdı, yəqin gülür çöl-çəmən,
Öz ətrini çölə səpir yasəmən.
Istəsəm də yol bağlıdı, gələməm,
Bağışla yurd, bağışla el, bağışla.

Bakı, aprel 2004-cü il.

AMAN VER, ƏCƏL

Ölüm gəlsə, güman yoxdu,
Ölmə, gözü yuman çoxdu.
Əcəl məndən nəsə umur,
Ondan nəsə uman yoxdu.

Neynim ki, minib yabını,
Əcəl kəsdirib qapımı.
Mənim gücüm çatan deyil,
Bəs kım versin cavabını?

Can şirindi, can ver əcəl,
Bəxtsizə zaman ver, əcəl.
Ölümdən betər nə var ki,
Kişisən aman ver, əcəl.

Şərdən gen dur, sən də dincəl,
Kor nalbəndsən, həm də cəncəl.
Qıcamısan küt dişini,
Irişirsən dəcəl-dəcəl.

Namərd olma, götür apar,
Evdə qədim bir kilim var.
Hələ məndən uzaq dolan,
Torpaq, oba nisgilim var.

Vida etməz qədər mənə,
Güc verəcək təpər mənə.
Əkib, biçib, tikəcəyəm,
Yönələcək nəzər mənə.

Torpaqları alaq geri,
Işə-gücə salaq mehrı.
Tərəqqiyə meydan verək,
Şad eyləyək könülləri.

Əsir düşüb qeyrətimiz,
Qoy sovuşsun töhmətimiz.
Xocalıya üz tutaq biz,
Safa çıxsın ismətimiz.

Udub ağrı-acımızı,
Qoy artıraq qayğımızı.
Qoy tanıdaq şəhid verən
Əziz ana-bacımızı.

Qoy yad edək şəhidləri,
Teymurları, Cavidləri,
Qaziliyi uca tutub
Əlil olan igidləri.

Qıyma, bacım saçın yolsun,
Qıyma, qardaş gözü dolsun.
Oğlum geysin bəy paltarın,
Qoy, qızım da gəlin olsun.

Zəfər suyun içə bilsəm,
Şərəf yolun keçə bilsəm.
Mən əcələ yalvarmaram,
Yurd-yuvama köçə bilsəm.

Əcəl "ağa", dad əlindən,
Çox çəkdim, imdad əlindən.
Nə yaxamdan əl götürdün,
Nə yoruldun əməlindən.

ARZULARDAN XOŞUM GƏLMİR

"Böyük toyun kənddə edək",
"Ad günündə dağa gedək."
Arzu böyük, dilim gödək,
Arzulardan xoşum gəlmir.

Hər bir toyda "sağlıq" dedik,
Hər sağlığa içdik, yedik.
Qayıtmayıb bircə gədik,
Arzulardan xoşum gəlmir.

Haçan geri dönəcəyəm?!
Bir ürəkdən güləcəyəm?!
Qəriblikdə öləcəyəm?
Arzulardan xoşum gəlmir.

İşğallardan danışmırıq,
Özgə işə qarışmırıq.
Öncüllərlə yarışmırıq,
Arzulardan xoşum gəlmir.

Atəşkəsi sevən çoxdu,
Döyüş əmri verən yoxdu.
Arzum öldü, qisas doğdu,
Arzulardan xoşum gəlmir.

AĞIRLAŞIR ÖMÜR ŞƏLƏM

Torpaq haqqın itirmişəm,
Fitva verin ölümümə.
Bundan belə nə yaşayış,
Yaşayıram sələminə.

Şadlıq qıtdır, artır ələm,
Ağırlaşır ömür şələm.
Düz yazammır hakim qələm,
Nankor çıxıb görəvinə.

Yağan yağış göz yaşımdı,
Dərd əyənsə öz başımdı.
Yol gözləyən baş daşımdı,
Nəzir dedim görümünə.

Adiləşib möcüzəli,
Qeyrət olub icazəli.
Ya peyğəmbər, Həzrət Əli,
Biz möhtacıq kərəminə.

Yol uzanır İstanbula,
Qəbz yazır Dubay dula.
Niyə düşüb bu pis yola,
Get, yiyə dur hərəminə.

Bu qədər dərd-qəm olarmı,
Dərd çəkənlər dəm olarmı?
Əncam çəkən cəm olarmı,
Dərman tapsın vərəminə.

SƏNGƏRLƏRIN OD YAXASI

Bivec əsgər yetişdirən utansın,
Şuşada da, Laçında da basıldı.
Həqiqəti ha gizlətsin, ha dansın,
Düşmənlərin iştəhası açıldı.

Ah-naləmiz içimizə gömülür,
Atəşkəsin gölgəsində sürünür.
"Bu xamır çox su götürər" görünür
Bu "naxışın" hər hənası açıldı.

«Kiş» demədik erməninin quşuna,
Torpağımız yaman gəldi xoşuna.
Mən nə deyım bu millətin huşuna?
Yersiz gəldi, yer davası açıldı.

Vətən eşqi hər sevgidən ucadı,
Yurdsevənlər bəzirgandı, xocadı.
Xan Kərəmlik dövrü bitdi, bicadı,
Sevənlərin öz səması açıldı.

Mən düşmərəm Xan Kərəmin gününə,
Yanmasam da, xələl gəlməz şənimə.
Lələ kimdir, çıxsın xalqın önünə,
Öyüdünün intəhası açıldı.

Mənim Əslim oxşayammaz harsına,
Sala bilməz Qara Məlik ovsuna.
Bizdə ərlər nə əyilər, nə sınar,
Səngərlərin od yaxası açıldı.

İRAQ BİZDƏN

Sonsuz səma..., zaman, məkan...,
Canlı, cansız, hər cür varlıq.
Hardan alıb ilkin təkan,
Kimə məxsus fədakarlıq?!

Yaradandan verin xəbər,
Niyə çıxmır bizə yiyə?
Yaradana ad qoymuşuq
Tanrı, xaliq, allah deyə.

Arxa dursun haqqımıza,
Sual kamil, cavab açıq.
Hər cavabın var niyəsi ,
Hər niyənin bir yiyəsi.

Nəsə göstər mükəmməldir,
Bu zamanın süzgəcindən?
Bu dağların, dənizlərin
Kainatın düzənindən?

Xəstəliklər tüğyan edir,
Dənizlərdə batan olur..
Meşələrə yanğın salıb,
Dağlarda dağ çatan olur.
(Əsirləri satan olur...)

Şərqdə baş verən qırğınlar
Damarlarda qan dondurur.
Sülh "yaratmaq" bəhanədir,
(Silah verib ovundurur),
Döyüşlərə tərəf durur.

Bu həyata nizam verən,
Bir yaradan, bir düzən var.
Sevgi, nifrət, məqam verən,
Mübhəm, sirli, bir süsən var.

Bir son versin işğallara,
Bir son versin talanlara.
Bir balaca ağıl versin
Müharibə salanlara.

Oğul odur qan yatırtsın,
Oğul odur tiksin, qursun.
Oğul odur vətəndaşa
Dayaq olsun, arxa dursun.

Yoxsa bunlar?!.... Güllə atır
Dinc , ya qeyri vətəndaşa.
Var-dövlət tutub gözlərin,
Iraq bizdən..., haşa-haşa.

ELƏ BİL TALEYİM HƏRBİ ƏSİRDİR

Gözüm yolda idi, qulağım səsdə.
Yaxşı ki, yanıma güzar eylədin.
Mən hansı dərddəyəm, sən nə həvəsdə,
Məni dərdlərimdən bezar eylədin.

Mənim taleyimdə qırmızı xətt var,
Səni də bu çətrin altına aldım.
Bu çətir altında nələr çəkmişəm,
İndi mən günlüsən, məəttəl qaldım.

«İçinin içində» oturtdun məni,
Tanrım da əlüstü qənim göndərdi.
Bu alın yazısı, ya bir rişxəndmi,
Taleyim hamilə və müntəzirdi.

Bu çətir altında nələr çəkmişəm,
Səni də özümə şərik eylədim.
Sevgi həsrətinə qala tikmisən,
Səni dərdə saldım, qəmə bələdim.

Bir sevgi tapmışam mən bu yaşımda,
Oğlumun nifrəti Çin səddi kimi.
Qoşa dayanıblar onlar qarşımda,
Kimi seçəcəyəm, axı mən kimi.

Oğlum da əzizdir, məhəbbətim də,
Seçimə getmirəm, qoy heç olmasın.
Onlar ikisi də axı mənimdi,
Nə oğlum incisin, nə yar solmasın.

Elə bil taleyim hərbi əsirdi,
Övladın əlində, yarın əlində.
Daha taleyimi siz yazacaqsız,
İnsafın dilində, sevgi dilində.

SƏN DƏ SALAMAT OL, MƏN DƏ SALAMAT

Öğlum vida etdin gənclik cağına,
Sən də salamat ol, mən də salamat.
Çalış, çox fikir ver sağlamlığına,
Sən də muğayat ol, mən də muğayat.

Ad günün mübarək, 100 yaşa oğul,
Bir dəfə ölmək yox, yüz dəfə doğul.
Adam var varlıdı, insan var yoxsul,
Sən də fəxarət ol, mən də fəxarət.

Gedək azad yurda, bir az toxtayaq,
Bir ev qaralayaq, tonqal odlayaq.

İtin, pişiyin var, bir-bir yallayaq
Bir addım mən atsam, birin də sən at.

Mən sivil dünyanın mətini gördüm
Atalı, analı yetimi gördüm.
Doğrunu, yalanı, çətini gördüm,
Sən də farağat ol, mən də farağat.

Ad günün mübarək, hürr oğlum Anar,
Sənə kömək olsun qoy pərvərdigar.
Sən də bəxtiyar ol, mən də bəxtiyar,
Bir fişəng mən atdım, birin də sən at.

Oxumuz yayından sıyrıldı bir yol,
Mənə haqq verəssən, bir az yaşa dol.
Mən sağa çevrilsəm, sən də dayan sol,
Mən bir həyat olum, sən də bir həyat.

Bizim yollarımız ayrıldı, oğlum,
Axı məhkəmə də quruldu, oğlum.
Amallar, məqsədlər duruldu, oğlum
Sən də salavat ver, mən də salavat.

Atayam, ürəyim ümman kimidir,
Yel vursa, titrəyir orman kimidir.
Bir müşkülün olsa, sarvan kimidir,
Bir imdad mən olum, birinə sən çat.

Yazıram, şairlər tərifləyibdir,
Demə, Ağaverdi xərifləyibdir.
Soruşma, könlümə kimlər dəyibdir,
Sən də salamat ol, mən də salamat.

SEVGİ DƏRSİ

Bir gözəlin evini bəzəyir şəkillərim,
70-ə yetişmişik, hələ də tək yaşayır.
Bu ömrün 50-sində eşqi tənhalıq olub,
İsmətinə bürünüb, ümidinə qısılıb...

Bu qız necə böyüyüb..., bu qız qarıya dönüb,
Gülləri şəkil olub..., bu qız arıya dönüb.

Mən necə görməmişəm onun böyük eşqini,
Vəfasının gücünü, cəfasının yükünü?

Mən xəbərsiz olmuşam məni sevən gözəldən,
mənə dəyər verəndən, cahilmiyəm əzəldən?!

Məndə korluq var imiş,
bəsirətim dar imiş.
Damarımda soyuq qan,
könlüm başı qar imiş.

Heç mənim də həyatım
rəvan, dolğun keçmədi.
Vüsalım həsrət dağı,
eşqimsə gür çeşmədi...

Məhəbbətim çağladı...,
nakam bir eşqə döndü.
Ürəyim parə-parə...,
eşqimin şamı söndü.

Nakam sevgilər dərsi...,
xatirələr ağırdı.
Düşünməkdən yoruldum...,
nəvəm də "Gəl" çağırdı.

Bu hekayət uzundu,
vaxta da hörmət edim.
Burda üç nöqtə qoyum...,
Nəvəmlə söhbət edim.

KƏND ÜÇÜN BURNUMUN UCU GÖYNƏYİR

Bizim dərdimizin dərindir kökü,
Köçkünlük ömrünün ağırdır yükü.
Ağarır, dizimin ağarır tükü,
Kipriklərim tez-tez vurur, səyriyir,
Gözlərim yol çəkir, içim göynəyir.

Qarabağın dağlıq xırda ilçəsi,
Orda bitir dadlı və turş göyçəsi.
Gec açardı qızıl gülün qönçəsi,
Qoltuğuna balınc qoyan neynəyir,
Kənd üçün burnumun ucu göynəyir.

Bizim evlərimiz sel ağzındadı,
Bağımız, bağçamız el ağzındadı.
Qonaq çox olardı, yol ağzındadı,
Sel gəlsə, bağ-bağat görən neynəyir,
Kənd üçün burnumun ucu göynəyir.

Şadlana bilmirəm, gülə bilmirəm,
Yaş sızır içimə, ölə bilmirəm.
Düşünə bilmirəm, dinə bilmirəm,
Kəndimizdə gəzən yağı neynəyir?!
Kənd üçün burnumun ucu göynəyir.

Daş-qaya görürəm yaddaş oyanır,
Evlərə baxıram, qanım qaynayır.
Mənim dünyam qan rənğinə boyanır,
Məni duyan, məni qanan neynəyir,
Yəqin ki intiqam, qisas söyləyir.

Çadırları, fin evləri gəzirəm,
Bir az ümid, bir az sevgi sezirəm.
Yaşayışdan, həyatımdan bezirəm,
Ümid verən, ümid güdən neynəyir,
Kənd üçün burnumun ucu göynəyir.

Uzaq düşüb obasından, elindən,
Məzə qaçıb duzlu, şirin dilindən.
Köks ötürüb elə tutur belindən,
Xudaverdi duruş tutmur, neynəyir,
Kənd üçün burnumun ucu göynəyir.

Vətən oğlu namus, qeyrət dəmidir,
"Qisas!" deyən şəhid ruhun cəmidir.
İşğal olan «Ağ oyuq» , «Çayzəmi»dir,
Baxaq, görək başbilənlər neynəyir,
Qəlbim qan-qan deyir, içim göynəyir.

Gəlin, bir az hərb oyunu oynayaq,
Təlim keçək, hərbdə bişək, qaynayaq.

Yeni əsrə miras döyüş qoymayaq.
Atəşkəsdə xumarlanmaq neynəyir,
Ürəyim sızlayır, içim göynəyir.

Yaşıl meşə, yaşıl zəmi tanışdır,
Sən də düşün, dərin-dərin anışdır.
Nələr oldu, nələr kökdən yanlışdır,
Qoyun-quzu yonca yeyir, çeynəyir,
İçim sirimsəyib, içim göynəyir

Ağaverdi, demə qaldım dərdinən,
Çox sevinmir hər danışan, hər dinən.
Sevilıcək xoş xəbərlə xoş dinən,
Yurda dönən xəyal pərim neynəyir?!
Kənd üçün burnumun ucu göynəyir.

QƏND DƏ DAŞIYIR

Eşşək zır heyvandır, ot da daşıyır,
Yıxlrsan belinə..., ət də daşıyır.
Adam var belədir, çox sifəti var,
Çox gözə gətirsən, yanın qaşıyır.

Eşşək yük çəkəndir, yükün bol elə,
Birin tərkinə al, altın çul elə.
Kimi istəyirsən pul ver, qul elə,
Sür-sümük nədir ki, it də daşıyır.

Ələmlərdə keçir fərdin dövranı,
Düşmən əlindədir, yurdu, ormanı.
Fərqinə varanmır ölüm karvanı,

Yaxşı da, yaman da, bəd də daşıyır.
Doğrunu nakişi üzə deməyir,
Namusu atırlar itə yeməyir.
Yükünü təpədə əyir həməyir,
Yalan da uydurur, vəd də daşıyır.

Dostum dözümlü ol, yanma, alışma
Millətin adından çəkin, danışma.
Bəlağət şefinə uyma, qarışma,
O qanlı torbada qənd də daşıyır.

1991

BİR MURAD VERİR

Seçib, sevmədikcə yarı-yoldaşı,
Salamın yaxşısın onda yad verir.
Özünü aldatma, unutma yaşı
Su da saxlandıqda acı dad verir.

Gözünün işığı safdır, durudur,
Bir xoş təbəssümün ömür nurudur.
Nədəndir naz-qəmzən yeri qurudur,
Mənə ümid verir, qol-qanad verir.

Ağrılı, acılı güman əbəsdir,
Təsəlli aldadan, illər də nəsdir.
"Gecələr sübhədək çəkdiyin bəsdir."
Tənha qayalar da bir gün çat verir.

Həyat bir karvandır, geridə qalma,
Kimisə sevməsən mehrini salma.
Ötəri hisslərə aludə olma,

Alın yazısı var, bir murad verir.
Nə qədər yaxınsan, guya bilmirəm,
Açımmı sirrimi suya, bilmirəm?
Xəyalmı, gerçəkmi duya bilmirəm,
Bizi sevməyənlər özgə ad verir.

Əlçatmaz zirvəsən, ünyetməz arzu,
Tənha keçən ömrün nə dadı-duzu?!
Bəlkə qoşalaşaq, əridək buzu,
Axı qisməti də bu həyat verir.

ƏLİNDƏ QALMIŞAM QOCALIĞIMIN

Xiffətin etmirəm cavanlığımın,
Bəhrəsin görsəm də ucalığının.
Şirəsin çəkirəm heyranlığımın,
Qəsdinə dolmuşam qocalığımın.

Əllərim əsəndə hikməti duydum,
Keçmişi yad etdim, xəyala uydum.
Zamanın nökəri, allah quluydum,
Əlində qalmışam qocalığımın.

Cavanlığın iyi burnundan getmir,
İpə-sapa yatmır, şükranlıq etmir.
Elə istəyi var, murada yetmir,
Abrını almışam qocalığımın.

Düz sözü deməkdən çəkinməmişəm,
Çətin durum olsa əkilməmişəm.
Kiminsə sirrinə tikilməmişəm,

Əsiri olmuşam qocalığımın.
Mərcanın yeriymiş dəryanın dibi,
Ürəyi kimiymiş kasıbın cibi.
Ağa Aqil ovut, sındırma qəlbi,
Keçəlin yolmuşam qocalığımın.

VAKSİN BARƏDƏ

(65 yaş və yaşı daha çox olanlara)

Ölümün fərqi varmı, var. Çox böyük fərqi var: şəhid olmaq, məqsədin-məsləkin uğrunda ölmək, əcəlinlə ölmək, bir də var əcəlsiz ölüm və intihar. Covid-19-dan ölməyi, vaksindən ölməyi əcəlsiz ölüm hesab edirəm. Əcəlinlə ölmək gözəl ölümmüş. Məqsədin, məsləkin uğrunda ölmək iradə nümayişidir, ucalıq məqamıdır. Ş ə h i d olmaq şərəfdir, zirvədir . Bizim dinimizdə intihar haram hesab edilir. Allahın işinə qarışmaq kimi qəbul edilir. İntihar var ki, ölümü şəxsin özü təkbaşına yerinə yetirir. Bir də var ki, dözülməz ağrıları olan xəstə üçün ölüm başqaları tərəfindən təşkil edilir(evtanaziya). Allah bütün ölənlərimizə rəhmət eləsin. Covidə yoluxaraq ölməyi kimsə istəməz. Mən də istəmirəm. Vaksin vurdurmaq üçün niyə əvvəlcədən növbəyə yazıldım? Entiyatlı hərəkət edib, yaşlılar üçün nəticələri dəyərləndirib, sonra getmək doğru olmazdımı? Yaşıdlarımdan vaksin barədə soruşduqda sadəcə qorxu hisslərini və vaksinə etibar etmədiklərini biruzə verirdilər. Ağlıma əsaslandıqda vaksinə qarşı məndə qorxu hissi yoxdur. Hərdən şübhə və tərəddüdlə düşünməyə başlayıram və bunu şeytan işidir deyə dəyərləndirirəm. Ağlım, təcrübəm nə deyir? Birincisi, prezidentin pandemiyanın ilk dövründə insanımı, iqtisadiyyatımı deyə «təbbi ki, mən insanımızı seçirəm.» deməsi və karantin elan etməsini, vaksin kimi də 95% nəticə göstərmiş Çin istehsalı olan sinopak vaksinini seçməsini unutmamışdım.

İkincisi, həkimlərimizin 70%-nin vaksini vurdurması da oyun ola bilməz. Oyun sözündən ona görə istifadə edirəm ki, bir çox dar düşüncəli insanlar bu işlərin hamısının bizi inandırmaq üçün bir oyun olduğunu düşünürlər. Əlbəttə, bu cür primitiv, səviyyəsiz düşüncələri qəbul etmirəm. Dərslərindən "2" və ya güclə "3" alan şagirdlərimiz dövlətimizə və prezidentimizə güvəndilər. Könüllü olaraq müharibədə iştirak etdilər. Torpaqlarımızı işğaldan azad edib, tarix yazdılar. Biz niyə onlardan örnək götürməyək. Biz də Covid-19-a qalib gəlmək üçün nə lazımdırsa etməliyik. Biz yaşlı nəsil də dövlətimizə güvənməliyuk. Vaksini vurdurub, şəkk-şübhədən qurtulmaq lazımdır. Bundan başqa Türkiyə dövləti də məhz Çin istehsalı olan bu vaksindən istifadə edir. Prezident RəcəbTeyyub Ərdoğan belə bu vaksini vurdurdu. Və elə bilirəm ki, bunları bilmək kifayət edər ki, vaksini vaxtında vurdurub, narahatlığa bir dəfəlik son qoyasan. Tanıdığımız və tanımadığımız şəxslərə nəticə barədə məlumat verib onları da inandırmaq insanlıq borcumuz olsun.

Bəs şeytan nə deyir? Şeytan da ağlıma yeridir ki, bu 5 %-lik (vaksinin göstəricisi 95%-dir) mənfi göstərici bəs edər ki, çanaq sənin başında çatlasın. Bəs nə edim? Mənə qalsa kimdi şeytanın sözünə baxan.

Onsuz da gedəcəm. Odur ki, olmadı elə, oldu belə düşünsəm də gedəcəm. Yaxşısı budur, yuyunum. Çiçə paltarlarımı geyinim. SMS-də göstərilən vaxtda poliklinikada olum ki, həkimlərimizin, eləcə də poliklinikanın iş rejimini pozmayım. Haydı, irəli. Vaksin vurulduqdan sonra nəzarət üçün yarım saat oturmamı təklif etdilər. Həmin vaxt ərzində aşağıdakı xitabımı yazdım.

YAŞIDLARIMIZA XİTAB

Ölümün haqqına girmək düz deyil,
Az yaşamamışam, nəsə arayam.
Allahın işinə kim olar kefil,
Mən qəfil ölümün tərəfdarıyam.

Koviddən qorunmaq dönüb vərdişə,
Vaksin qəbul etmək olub könüllü.
Bir səbəb görmürəm düşəm təşvişə,
Hər yerdə intizam, hər şey düzənli.

Əcəlindən qaçan kimsə var, bəlkə,
Bu allah hökmüdür, əcəlim haqdır.
Qayğımızı çəkir bu gözəl ölkə,
Yaxşı ki, önündə üzümüz ağdır.

Çox gözəl tədbirdir vaksinasiya
Siz də yararlanın, ay yaşıdlarım.
Afrika pul tapmır, çökür Asiya,
Sonuna çıxarsız pis qorxuların.

Qeyd edim ki, vaksini qəbul etdikdən sonra fərqli nəsə duymadım. Özümü həmişə olduğum kimi hiss edirəm.

08.02.2020

POEMALAR

OZAN OLDU

(poema)

Atam-babam deyən sözdü,
Düşmənin də kişi ola.
Pisi odur ikiüzlü,
Böhtan adi işi ola.

Düşmənimiz nəkarədi,
Düşmənimiz inamsızlıq.
Düşmənimiz içimizdə
Dərdə dözmək, qiyamsızlıq.

Gələn-gedən tərif yapdı,
Bu kənd nə gözəl kənd imiş.
Heyif ki, çox gec bilindi,
Agent imiş, agent imiş.

İşıq söndü, su kəsildi,
Şayə gəzdi el-el, kənd-kənd.
Ziyalı var, küyə düşdü,
Bəs neyləsin yazıq nalbənd?!

Mal örüşdə, at tövlədə,
Susuz qaldı toyuq, cücə.
Yükün tutan pis hövlədə,
Xof gəzirdi küçə-küçə.

Nəyi qoysun, nə götürsün
Paltar, çörək, yoxsa ərzaq.
Qoy dincəlsin, köks ötürsün,
Ah-naləsin necə yazaq?!

«Kənan hanı?» – nənə sordu,
«Körpə balam?» – ana çöndü.
Saxlayammaz onu ordu,
Körpə ilə birgə döndü.

Bağlı qaldı it zəncirdə,
Baxıb-baxıb qaçan oldu.
Kündə küt oldu təndirdə
Görən üstün açan oldu?!

Bir hay verən tapılmadı,
Bu ellərin çağrışına.
Dar günündə kömək durar,
Axı qardaş-qardaşına.

Hanı bizim əsgərimiz,
Hanı cəsur igidimiz?!
Qardaş, axı belə olmaz,
Yerdə qaldı meyidimiz.

Necə qoyub getsin axı,
Bu ev, o bağ onunkudu.
Çəkə bilməz belə dağı,
O çay, bu dağ onunkudu.

Bacım Tavat tərifləndi
Taxt-oxlovun, qara sacın.
Təkbaşına o bir ərdi,
Allah aldı son əlacın.

Onunkudu axan bulaq,
Həkərinin şırıltısı,
Bağayarpaq, quzuqulaq
Ürkək kəklik pırıltısı.

Bax o zoğal, turş alça da
Gicirtkən də duz istədi.
Tablaşmadı dərdə, oda
Ürəyim də buz istədi.

Quşüzümü, şahpencəri
Yelləndilər qınaq ilə.
Yoxa çıxıb məlhəmləri,
Saxlandılar sınaq ilə.

Alt eyvanda quyu qazıb,
Üst evinə su çəkmişdi.
Həyətinə əl gəzdirib,
Bacım təzə gül əkmişdi.

İndi olum, ya da ölüm,
Sual kimi qarşısında.
Bu müşgüldən kim çıxdı, kim
Qollar bağlı, qılınc qında.

Bu erməni əhvalatı
Bilərəkdən dondurulub.
70 illik bir həyata
Dostluğumuz qandırılıb.

Buqələmun, ya erməni
Masqasını dəyişdi o.

Dotasiya adlı yeni
Əmzik tapıb girişdi o.

Dindaşları göz yumdular,
Erməninin əməlinə.
Qan ələndi, qan çiləndi
Bu «oyunun» təməlinə.

Düz sözümüz iynələndi,
Yaltaq-yultaq düyələndi.
Həris düşmən torpağıma
Qarış-qarış yiyələndi.

Bəzətdirib boş otağı,
Kirvə tutduq hay qonağı.
Baş otaqda yatan qonaq
İndi olub düşmən, yağı.

Ermənіyə «əziz qonaq»,
Qonşumuza yaman dedik.
Darda qohum yad elədi,
Xar elədi zaman dedik.

Yalanlarla cüt yaşadıq,
Qazancımız çapan oldu.
Özümüzü tanıyıncan
70 illik zaman oldu.

Bu yalanı bilə-bilə,
Dəstək verdik, arxa durduq.
Düz sözə də, düz işə də
Yalanlardan yamaq vurduq.

Yalan girdi ömrümüzə,
Yalanlara dözə bildik.
O ki, gəldik özümüzə
Gec də olsa sezə bildik.

Neçə əlil, neçə xəstə…,
Qapısını açan oldu?!
İmkan düşdü kəmfürsətə,
Tox qarınla acan oldu.

Bir aydakı tam qazancı
Güclə çatır həftəsinə.
Həftə sonu tutur sancı
Yük düşübdü öhdəsinə.

Ermənіyə «un göndərən»,
Dünən başçı, bu gün heçdir.
Çönüb olub yol göstərən,
Bu gün gecdi, bu gün gecdi.

Yaşayaqmı gözü qıpıq?
Bu sualdan qaçan oldu.
Kimsə deyir yazıq-yazıq
Xoş günümüz haçan oldu?!

El-obanın ünvanına
Yeni-yeni ad yazıldı.
Qeyrətimiz dəfn edildi.
Sanki qəbir, yer qazıldı.

Ya qaçqınıq, ya didərgin,
İgid öldü, ər basıldı.

Öyünməyin qıldıq tərkin,
Gözümüz sözdən asıldı.

Yaşayış çətindən-çətin,
Yolun çaşan, azan oldu.
Bu dərdlərə dözməz yəqin,
Ağaverdi ozan oldu.

GÖZƏLDİ

(poema)

Bir uzun kəndidi, qalıb gümanda
Biganəyə "nayna-nayı" gözəldi.
Düşmənə işləyir zalım zaman da
Bizim elin "a lay-lay"ı gözəldi.

Yalçın qayalığı çoxdur yurdumun,
Həsrətin çəkirəm bir boz qurdunun.
Kaş içə biləydim bircə qurtumun,
Həkəri adında çayı gözəldi.

Vaxt gələr çimərik biz Həkəridə,
Nə qədər üzürsən üz Həkəridə.
İnciyib küssən də, kəs Həkəridə
Bu çayın Bərgüşad tayı gözəldi.

Zəngəzur mahalı olub oylağı,
Üçtəpə, Dübəkli qoyun yaylağı.
Yurddan ayrılalı çoxalıb ahı,
Çoban danışanda ayı gözəldi.

Meşəsi çəkilib dağ ətəyinə,
Çıx dağ zirvəsinə, en çökəyinə.
Arılar bal yığır dar pətəyinə,
Ürkək əliklərin sayı gözəldi.

Hay – küyün eşidib yamanladılar,
Yalan danışdığın gümanladılar.
Qurd təpdi sürüyə, inanmadılar
Gopçu Güləddinin hayı gözəldi.

Bizim qəbiristan indi yoxdu ki !!!
Ölənə yer tapsam bəxtim çoxdu ki.
Nahaq deyilmiş söz indi oxdu ki,
Kəndimizdə elin vayı gözəldi.

Qarının arzusu süslənəcəkmi…,
Qurbanlıq quzular bəslənəcəkmi?!
Bəhrəm[1] Qaşbaşıdan səslənəcəkmi,
Didərgin ömrünün nəyi gözəldi?!

Kabablıq quzunu kəsib soyunca,
Cıdıra çıxardıq çaylaq boyunca.
Atları çapardıq bir gün doyunca,
Qulunu, madyanı, dayı gözəldi.

Biz araq çəkərdik zoğaldan, tutdan,
Aşağı yenməzdik bəyaz buluddan.
Turşulu bişərdi şorlu qurutdan
Allahın verdiyi payı gözəldi.

Kəndin sözə gəlməz hüsnü olardı,
Külək ağacların saçın yolardı.

Gözəllik nəğmə tək qəlbə dolardı.
Gecə hilal qaşlı ayı gözəldi.

Pəhləvan xalıda güləşən zaman,
Düşmən imdad edib mələşən zaman,
Bakı Təbriz ilə birləşən zaman
Mərəndi, Gəncəsi, Xoyu gözəldi.

Topallı dərədə topalım qalıb
Xoş günüm, xoş sözüm, xoş halım qalıb.
Bu günə pəjmürdə əhvalım qalıb
Oxum hədəf vursa, yayı gözəldi.

Sözdən işə keçək, düz iş əməldi,
Məqsədə çatmağın ilki təməldi.
Bir ekiz körpə də dünyaya gəldi,
Bu bəyin, xanımın soyu gözəldi.

Qoruya bilmədik bəndi, bərəni,
Xudaya tapşırdıq səkil kürəni.
Kirvəyə döndərdik türkə "hürəni",
Yoxsa elin bu "vay-vay"ı gözəldi?!

Ağdərəni bir gün geri aldılar,
Düşməni tanınmaz hala saldılar.
Xalqımız qələbə sehrin daddılar,
Zəfər çalan elin soyu gözəldi.

Birləşin ay ellər, od-alov saçın,
Qayıtsın Şuşamız, alınsın Laçın.
Muştuluq paylayım, bol süfrə açım
Elin səadəti, toyu gözəldi.

Arzuya dönməsin allah umurum,
Dağlardan boy alıb məğrur qürurum.
Gərək rahat yatsın şəhid Teymurum,
Qisasın önləyən dayı gözəldi.

Mən eldən seçmişdim, gözəli gördüm,
Çöhrəsi qəmliydi, bəzəli gördüm.
Dostumu, aşnamı məzəli gördüm,
Qananı, qanmazı, xayı gözəldi.

Biz kəndçi babaydıq, olduq şəhərli
İndidə olmuşuq işsiz təhərli.
Bağlarımız vardı, barlı-bəhərli
Kərənti çalardıq, hayı gözəldi.

İndi yığılmışıq qutu evlərə,
Hesab saxlayırıq oğru ciblərə.
Baxırıq şütüyən hallı ciplərə
Nə düşünsən düşün, sayı gözəldi.

Xan qızı Natəvan yadlaşır bizə,
Gah Nəbi, gah Həcər zillənir gözə.
Töhmət-tənizimiz çıxıbdı dizə
Kəndimin qayğısız ayı gözəldi.

Əlyar düşmənini dağladı, getdi,
Qorxmaz bir al qumaş bağladı, getdi
Döyüşdü, oxudu, çağladı getdi,
Cəsur oğulların boyu gözəldi.

Itkim çox böyükdür, yoxdur əlacım,
Şəhid anası tək yaşadı bacım.

Teymurun ruhuyla qoşadı acım,
Süsən balasının toyu gözəldi.

Bir sürü varıdı kənddə hərədə,
Dadaşın kahası Əyri dərədə.
Adla tanınardı nəsil, törə də
Kəndin ayamalı soyu gözəldi…

"Qəbr üstə" gedərdik…, ibrət varlığa.
Sükutla dalardıq minnətdarlığa.
Canlanma gələrdi lal məzarlığa,
Hədislər, dualar, ayə gözəldi.

Damda toplaşardıq çilə axşamı,
Deyərdik, gülərdik, tutub fal şamı.
Odda yandırardıq hər qarğaşanı,
Cavanlığın halı, huyu gözəldi.

Igidlər yurdudur bu şanlı diyar,
Gecələr gözəldi, gündüz füsünkar,
Böyük sözü vardı…, yoxudu hünkar.
Böyüyün, kiçiyin oyu gözəldi.

Gözəldi təbiət, gözəldi həyat,
Bizə dar gəlirdi sonsuz kainat.
Bir hüzür var idi, bir şəksiz səbat,
Nişan gözləyənin payı gözəldi.

Arzun gerçək olsun ay Ağaverdi,
Kimlər bu vətəni ayağa verdi?!
Bu vətən çox oğlun sadağa verdi,
Gələcək zəfərin ayı gözəldi.

31.08.1998

MÜHARİBƏ VƏ MƏHƏBBƏT

(poema)

Tələbəlik illəri

Qəbul imtahanı, sınaq, qələbə,
Sovet dönəmiydi, oldum tələbə.
Qanadım çatmırdı göylərdə süzüm...,
Sanki uçub düşdüm qədim Hələbə.

İlk dəfə görürdüm Stepanakerti,
Bu yerlər olubmuş xanlıq, Xankəndi.
Xanlar, bəylər olub sovet düşməni,
Adın dəyişiblər "erməni fəndi"...

Ey mənim xan babam, Pənahəli xan,
Nə qılınc qalıbdır, nə də ki, qalxan.
Çətin tanıyardın əmanətini,
Çox sular axıbdır, dəyişib dövran.

Səninki olsa da təməli, bəndi,
Zəbt olub torpağın, ey xan əfəndi.
Hayları köçürdüb bu torpaqlara,
Olub rusun, farsın "erməni kəndi".

Yeyib, qudurublar çörəyimizi,
Nişangah biliblər kürəyimizi.
Şirin yalanlara, dillərə uyduq,
Sanki haylar kəsib göbəyimizi.

Bunların çörəyi diz üstündədi,
Ayaqlar sürüşkən, buz üstündədi.
Dənizdən dənizə yollar çəkirlər,
Bədnam məqsədləri göz önündədi.

Unutduq yenə min doqquz yüz beşi,
Unutduq sınmayıb hayların dişi.
Onlar şərik çıxıb torpağımıza,
Unutduq, unutduq qanlı keçmişi.

Bilmirəm bəs niyə unutqanıq biz,
Niyə korşalıbdı iti dişimiz?
Çoxmu beynəlmiləl, qonaqpərvərik,
Nədən düz gətirmir vətən işimiz?

İrəvan xanlığı Erevan olub,
Haylar qədim yurdda firavan olub.
Bilməzdik Qarabağ Artsax olacaq,
Görmək gözümüzə bir dağ olacaq.

İlk məhəbbət dönəmi

Düşmüşdüm qızların lap bolluğuna,
Hərdən sevinirdim doğulduğuma.
Gözlərim tutmuşdu ufaq birini,
Mən heç qısılmadım yoxsulluğuma.

Bir kənd uşağıydım qürurlu, dikbaş,
Nə qorxu bilirdim, nə him, nə göz-qaş.
Ağac tək bitərdim getdiyi yolda,
Nəzər yetirməyib keçərdi birbaş.

Gördümsə, hər işim ertələnərdi,
Üzümdən, gözümdən nur ələnərdi.
Gülüşü gül açar ovurdlarında,
Üzündə təbəssüm qönçələnərdi.

Qıyqacı baxışla üzərdi məni,
Başdan ayağacan süzərdi məni.
Hərdən istehzasın duyub, küsərdim
Sayğısız, duyğusuz əzərdi məni.

Eşitdim ilişib bir imkanlıya,
Bir şor göz, bicbala, adlı-sanlıya.
Erməni əsilli rəfiqəsi də
Maddi məqsəd güdür, çətin anlıya.

Ey sadəlöhv insan, ürək nə deyir?
Hər söz düz olmur ki, görək nə deyir.
O şey ki, könül yox, göz qamaşdırır,
Sən sonucu gözlə, fələk nə deyir.

Ona rəfiqəndən demişdim: "Ayrıl !"
Ayrılıb getmişdi imkanlı Mayıl.
Ciddi yanılmışdı gümanlarında,
Dumana dönmüşdü o "hayıl- mayıl".

Mənə yönəlmişdi üzü mələyin,
Qurbanı olmuşdu incə kələyin.
Qəbul edərsənmi? – soruşdu məndən,
Zərbəsin dadmışdı qəddar fələyin.

Mən səni sevəndə sən sevməmişdin,
"Ayıl bu qəflətdən, sıyrıl!" demişdim.

Onu rəfiqəsi dövrələmişdi...,
Xəbərdarlıq edib, töhmət yemişdim.

Sipər olammadıq saxta sevgiyə,
Aldandı, çevrildi qara kölgəyə.
Sevdanı riyadan ayırammadı,
Yem olduq hiyləgər, harın tülküyə.

Haram iş gördülər, haram demədik,
Halallıq almayıb, olublar yetik.
Çarəsiz buraxıb, əkildi Mayıl,
Eşqin sərt şilləsin ikimiz yedik.

Məni də əzirdi sınıq qüruru,
Sanki kütləşmişdi iti şüuru.
Yaxşı qarşıladı dostluq qayğımı,
Bərpa olunurdu itmiş hüzuru.

Biri də yerliydi, adı Vidadi,
Qıza vurulmuşdu, çox normal, adi.
Yığıb hay dostların gəldi üstümə,
Daş-kəsəklə qovduq, qeyri- iradi.

Dostumun atdığı daş- kəsəkləri,
Dəf edə bilmədi qorxaq erməni.
Tək qaldı meydanda, Vidadi çaşdı,
Boğazında qaldı, uddu kəlməni.

Namərd Vidadinin basqısın bilcək,
Tələbə dostlarım durdular kömək.
Onlardan biri də hay əsilliydi,
İmtina elədi, çəkildi gerçək.

Mələyim biləndə təşvişə düşdü,
Gəlib ikimizlə həmən görüşdü.
Gözümdə böyüdü sərt görkəmiylə,
Rədd etdi..., Vidadi durub, sürüşdü.

Münaqişə dönəmi

KRUNK yaratmışdı üzvlər burda,
Hər biri dönmüşdü leş güdən qurda.
Hərdən anlayırdım dediklərini,
"Öldürək, basdıraq çala- çuxurda."

Silah daşınırdı mələfələrdə,
Gizlinc yerlər vardı qədim şəhərdə.
Bundan danışanda güldülər mənə,
"Ağlına gələni danışma bir də."

Müəllimə dedim, hirsləndi mənə,
"Səni göndərərəm uzaq sürgünə."
Beynəlmiləlçiydi məmurumuz da,
Gümanım nə idi, eşitdiyim nə?!

Ayrılıq dönəmi

Bizim dostluğumuz uzun sürmədi,
Eşqim əlil oldu, heç yüyürmədi.
Həzm edə bilmədim "dediklərini",
O gündən bu günə qəlbim türmədi.

Bağlıydım qənirsiz gözəlliyinə,
elin adətinə, əzəlliyinə.
Müqəddəs sanırdım bakirəliyi,
yenildim qürurun özəlliyinə.

Bir gün başa çatdı tələbə dövrüm,
Könlümdə çatladı qəzəbim, hövrüm.
Əlvida söylədim mən ilk eşqimə,
Sevdasın əzaba çevirdi ömrüm.

Uzun illər ötdü, dəyişdi dövran,
Ruhumda yaşadı o gözəl ceyran.
Məni tərk etmədi fikri, xəyalı,
Özüm də olmuşdum ruhuma heyran.

İşğal dönəmi

Mənim yaşayışım yaşayış deyil,
İçim sirimsəyib, qaysaq bağlayıb.
Gözləyir yolumu ağ gül, qızıl gül,
Hər ağac barından sovqat saxlayıb.

Dadaşın kahasın, pirin ot basıb,
Yolu sel dağıdıb, tövlələr uçub.
Ya tanrım baş-ayaq bir tale yazıb ,
Ya həyat qumardı, yurdum uduzub.

Müsəlləh əsgərə çevrilsin hər kəs,
Gəl, ey vətən oğlu, məram bəllidir.

Məndən nə umursan, nə gözləyirsən,
Birlik hər müşkülün şərti, həllidir.

Ümidsiz olanda küfür yazıram,
Ərlər, igidlər var həm də ölkədə.
“Silaha sarılaq”, mən ki, hazıram,
Yerimi görürəm düz ön cərgədə.

Topu, tüfəngi də bəhanə etmə,
Partizanlıq edək Mixaylo kimi.
Gəlin, yola düşək Şuşaya sarı,
Onura çevirək, yaraq cəbhəni.

İstəyirəm mən də Dilqəmə dönüm,
Gedib, yurd-yuvamı dolanım, görüm.
Nə olsun yatıram yurduma yönüm,
Uçuq hasarıma daş-divar hörüm.

Şəhidlər veririk tez- tez cəbhədə,
Şəhid anasının sırası artır.
Niyə aludəyik vara, sərvətə,
Axı bu vətənin yarası artır.

Silaha sarılaq, ötür qərinə,
Bir dəyər yaradaq qeyrətimizə.
Xocalı oxuyaq marşın yerinə,
Namusu qaytaraq şöhrətimizə.

Erməni xisləti

Gizlədə bilmədi düşmən pis üzün,
Silmək istədilər Şuşanın izin.
Sırasına yazdı Cıdırı çöllər,
Tərəkəmə oldu Xarı bülbüllər.

Xan qızı Natəvan, dahi Üzeyir…,
Bülbülün diliylə, görün, nə deyir:
Biz əsir qalmışıq düşmən əlində,
Gözəl Şuşamızda, xan vətənində.

Büstümüz mərmiylə "xəlbir" edilib,
Gürcüstanda satmaq üçün gedilib.
Deyin, xəbər edin ulu öndərə,
Bəlkə azad edə, geri göndərə.

Öndərimiz duyan kimi "xəbər"i,
Yaxaladıb bədnam, gizli səfəri.
Alıb, gətirilib büstlər vətənə,
Sevindirib eli, hər bir nəfəri.

Faş etdi erməni xain xislətin,
Ay erməni, budur iç mahiyyətin.
Gərək bu dünya da tanısın səni,
Yazıq görkəmində yırtıcı təni.

Məcburi köçkünün nakam məhəbbəti və ayrılığın sonu

İşğalla qarışdı xəbər xəbərə,
Zaman gülümsədi kəmfürsətlərə.
Mən oldum didərgin, məcburi köçkün,
O da sakin imiş həmin şəhərə.

Dedilər o qadın qonşundur sənin,
Pozuldu əhvalım, xəyal düzənim...
Yenə baş qaldırdı xatirələrim,
Yenə çiçək açdı sevgi süsənim.

Bilmədim, yaxınmış bu uzun illlər,
Təsadüf söhbətdən mən aldım xəbər.
Bir oxşarın gördüm, riqqətə gəldim,
Kənardan seyr edib, salırdım nəzər.

Nəvəsi qalırmış təkcə yanında,
Səsini oxşatdım ilk söz anında.
Yerişi, duruşu doğmaydı mənə,
Ona göz qoyardım öz zamanında.

Dedim ki, nənənlə bir oxumuşuq...
Dedi, "Bu xoş xəbər, bu bir muştuluq.
Nənəmin əhvalı bir az düzələr."
Dəvət etdi məni, bu şux, bu "şuluq".

Hənirti eşitdim kiçik otaqda,
"Eşqim" uzanmışdı bir ağ yataqda.
Bir anlıq gözlərim qaraldı sanki,
Quruyub, qalmışdım mən bir qıraqda.

Bu gözəl, eşqimin ruhu, qanıydı,
Bu səhnə son görüş, vida anıydı.
Ölüm yatağında inləyən bu can,
Nakam sevgimızın qəm dastanıydı.

Gördü..., görən kimi məni tanıdı,
Söylədi "Gəldinmi..., ölüm anıdı."
Dolub - boşalırdı ağlar gözlərim,
Bu son nəfəs idi, ruhsuz canıdı...

İnsan seli vardı çöldə, küçədə,
Şad xəbəri duydu bu əndişədə.
Canını tapşırdı, məni tərk etdi,
Şahidlik eylədim bu gərdişə də.

Ölüm ağuş açdı, ağuş irildi,
Sanki tanıyırdım, bir neçə ildi.
ZƏFƏR-i eşitdim bir belə gündə
Bir sevgilim öldü, biri dirildi.

Zəfər dönəmi

Məhşur payız idi, ayın onuydu,
Dünyanı mat qoyduq, dost, düşmən duydu.
Mən də dəfn edirdim məhəbbətimi,
Bu görüş bir eşqə nakam sonuydu.

Bilmirdim ağlayım, bilmirdim gülüm,
Yaman amansızmış ayrılıq, ölüm.
Elə bil göylər də qarğıyıb məni,
Mənə çox deyilmi bu qədər zülüm.

Bilmirdim yas tutum, yoxsa öyünüm,
Bayrağı götürüm? Qara geyinim?!
Eşqimi almışdı ölüm əlimdən,
ZƏFƏR-lə artırdı həyat güvənim.

Gözün aydın olsun, cəfalı vətən,
Ey başı bəlalı, səfalı vətən.
Yox oldu, çəkildi qara buludlar,
Axır ki, atlatdın məlalı, vətən.

Düşmənin durmuşdu torpaq qəsdinə,
Tez-tez sataşırdı, dəydi şəstinə.
Qarabağı azad edib ordumuz,
Əbədi günəşin doğub üstünə.

ZƏFƏR-i qazandı igidlərimiz,
Müzəffər komandan, zabitlərimiz.
Bizi ayıldacaq iitkilərimiz,
Bizi dik tutacaq şəhidlərimiz.

Ey böyük Türkiyəm, Azərbaycanım,
Bayraqla döyünür, coşur al qanım.
Bir dalğa yaradır bayraq rəngləri,
Ey azad vətənim, ey şirin canım.

Çökdü otuz illik hayın "xan"lığı,
Yəqin tərgidərik unutqanlığı.
İki min yeddi yüz səksən üç şəhid,
Dəhşətdir erməni qudurğanlığı.

Hay Şuşi deyirdi gözəl Şuşana,
İşğal yaraşmırdı Azərbaycana.

Qarabağ əsarət zəncirin qırdı,
Sevin ey Vətənim, car çək cahana.

Prezident yol çəkib Xudafərinə,
Bir naxış da vurdu güc zəfərinə.
Düşmən köks ötürür, baxıb uzaqdan,
Yaxın dura bilməz həndəvərinə.

Xan qızı Natəvan, dahi Üzeyir…,
Bülbülün səsiylə nəğmələr deyir…
Büstləri Şuşada bərpa edilib,
Açılş gündəmə, seyrə çevrilib.

Füzuli, Cəbrayıl, Laçın və Ağdam,
Zəngilan, Qubadlı... yoxdur bir sağ dam.
Sinəmdə ağrım var, köksümdə hikkəm,
Bir damcı da keçməz su boğazımdan.

Gərək, vaxt keçməsin bəhanələrdə,
Yeni dövran quraq "viranələr"də.
Yeni mahnı qoşaq, şərqilər deyək,
Bu tarix yaşasın tələnələrdə.

Ay elim, ay obam gözünüz aydın,
Yığılın, yığışın geri qayıdın.
Dağlarla bölüşün həsrətinizi,
İçinizdə yatmış hissi oyadın.

Ağaverdi, get, çıx Hərtiz dağına,
Günəşi yaxala, gəlsin yaxına.
Qayıdış başlayıb, kənarda qalma,
Yasına son qoy ki, qoşul axına.

06.2021

PAYIZ ETÜDLƏRİ

(poema)

(müharibədən əvvəlki səkkizinci gün)

Payız səhəridir, sakit və sərin...,
Mənsə əsiriyəm düşüncələrin.
Kimləsə bölüşmək istəmədiyim,
Kimdənsə iltifat gözləmədiyim.

Bəs necə həll edim bu müşkülləri,
Həm də incitməyim o könülləri.
Fikrimi beləcə sapa düzürəm,
Fikirlər içində səssiz üzürəm.

Payız səhəridir sakit və sərin...,
Düşünməm gərəkir dərindən dərin.
Qərar verməliyəm, həyati qərar,
Düzgün anlaşılsam, qəlb aram tapar.

Mən çox üzüləcəm..., bilirəm bunu,
Ayrılıqla bitər müşkülün sonu.
Fəqət ayrılığın xoş tərəfi var,
Qovuşmaq üçün də bir ümid saxlar.

Payız səhəridir sakit və sərin...
Mən də əsiriyəm düşüncələrin.

* * *

(müharibədən əvvəlki yeddinci gün)

Bir günəşli gündür sakit və sərin,
Yataqdan duyuram payız səhərin.

Sinəmə çəkirəm ilıq havanı,
Tezdir..., qalamayım hələ sobanı.

Günəş işığından gözüm qamaşdı,
İşıqla qaranlıq bir an savaşdı.
Otağıma doldu al şəfəqləri,
Xoş ovqat olacaq bu gün bədəli.

Birini dəyişdim mütəkkələrin,
Çox əziz tuturam amma o birin.
Zərif əl işi var tikmələrində,
Anamın ruhu var ilmələrində.

Baxsan göz oxşayır naxışlarıyla,
Nəvəm sığal çəkir baxışlarıyla.
Gördüm pəncərəmdə dünya dəyişir,
Bu gün gözəl gündür, bu mənə düşür.

Bir günəşli gündür sakit və sərin,
Yataqdan duyuram payız səhərin.

* * *

(müharibədən əvvəlki altıncı gün)

Payız səhəridir, solğun və sərin,
Hərdən səsi gəlir ac küləklərin.
Yenə vıyıldaşıb hay salacaqlar,
Yenə Qavaldaşda toy çalacaqlar.

Mən heç xoşlamıram bu külәkləri,
Sıxıntıya salır çox ürəkləri.
Yaxşı xəbər yayır agentlik kimi,
Yəqin çatdırarlar yurda fikrimi.

Sən ey sabah yeli, et dil əzbəri,
Mən də gələcəyəm olsun xəbəri.
Siz bizi tərk edin xəbərinizlə,
İşiniz olmasın şəhərimizlə.

Ümidim intihar ipinə dönüb,
Möhnətə inamım qırılıb, sönüb.
Sən ey sabah yeli, apar xoş xəbər,
Bəlkə bir az gülər, bəlkə sevinər.

Payız səhəridir solğun və sərin,
Hərdən səsi gəlir ac küləklərin.

* * *

(müharibədən əvvəlki beşinci gün)

Payız səhəridir, pozulub sükut,
Mahnı səsi gəlir, evlənir Bulud.
Covidi söyürdü babası Həsi,
Çoxdan eşitmirdi məhlə toy səsi.

Yəqin ki, görüblər «uçastkovu»nu,
Yoxsa əldən qoymaz o da «ov»unu.
Bu Covid dəyişib gündəmimizi,
Dişinə vurubdu hərdəmimizi.

İndi üzü gülür uşaqların da,
Rəqsi hiss edirlər bacaqlarında.
Maraq içindədir gəlib - gedənlər,
Qulağın şəkləyib xəbər güdənlər.

Həyatın axarı öz işindədir,
Aşpaz Qələndər də biş-düşündədir.

Baxın, təkrarlanır Haqqın gərdişi,
Sabaha qalmır ki, bu günün işi.

Payız səhəridir, pozulub süküt,
Mahnı səsi gəlir, evlənir Bulud.

* * *

(müharibədən əvvəlki dördüncü gün)

Payız səhəridir, pozulub süküt,
Nəvəm ovxalayır gözünü küt- küt.
Təbriz dalğalanır, axşam eşitdim,
Qarşısın alammır, erməni, fars, din.

Təbriz dalğalanır, gün tək doğacaq,
Bütöv Azərbaycan zülmü boğacaq.
Payız səhəridir, pozulub sükut,
Oyanıb, oyanır Zərdüşt və Qorqud.

Bu el törəyibdi Koroğlulardan,
Bu yurd xali deyil mərd oğullardan.
O gün olmalıdır, o gün olacaq,
İran çalxalanır, yalqız qalacaq.

Bakı, İslamabad, Təbriz, Ankara
Ermənin dostu bu farslar hara?
Oğuz düşmənləri dərsin alacaq,
Fars da, erməni də tənha qalacaq.

Payız səhəridir, pozulub sükut,
Oyanıb, oyanır Zərdüşt və Qorqud.

* * *

(müharibədən əvvəlki üçüncü gün)

Payızın dəyəri günbəgün artır,
Bu payız aramsız səbrimi dartır.
Yenə göstərəcək şərafətini,
Məhsul bayramını, bərəkətini.

Bizim torpağın da barı olacaq,
Qubadlı xurması, narı olacaq.
Zəfər günlərində üzə çıxacaq,
Zəngilan üzümü dizə çıxacaq.

Necə edəsən ki, sonda güləsən,
Gərək bacarasan, gərək biləsən,
Həyatı firavan, şən yaşamağı....
Nədir, bilməyəsən yağmalamağı.

Gözlərin tox olsun, qəlbin də geniş,
Elə işlər gör ki, keçirmə təşviş.
Allaha, vətənə sevgini bildir,
Öz üzün gülsün ki, üzləri güldür.

Payızın dəyəri günbəgün artır,
Bu payız aramsız səbrimi dartır.

* * *

(müharibədən əvvəlki ikinci gün)

Yağışlar geçikir..., payız və yağış,
Payızdan umduğum ən gözəl naxış.
Yağışlardı yuyan pası, riyanı,
Bakıdan təmızlər pandemiyanı.

Nələr yada düşür payız deyəndə,
Sarımsaq qatıqlı xingəl yeyəndə.
Yağış, külək gəlir insan ağlına,
Nənələr başlayır div nağılına.

Yeni məzmun alır nağıllarımız,
Şəhid ətri səpir ahıllarımız.
Əliyar nağılı, Şükür nağılı,
Mübariz nağılı, Teymur nağılı.

Hətta nağıllaşıb şəhərlərimiz,
Lələtəpə olub dəyərlərimiz.
Zəfərə səsləyir qurur yolumuz,
Zəngəzur adlanır dəmir yolumuz.

Nağıl başlayacam «alır ağılı»,
Zəngəzur nağılı, Şuşa nağılı.

* * *

(müharibədən əvvəlki birinci gün)

Yağışlar başladı, yağış, nə yağış,
Aramslz bir yağış..., ilahi alqış .
Səhəng boğazından sanki tökürdü,
Yerin pasın-tozun bir an süpürdü.

İndi açılıbdı çölün sifəti,
Daha unudular yağış xiffəti.
Çoxdur yaradanın möcüzələri,
Görünmür..., görünür işi, hünəri.

Ona inanmayan cahildir, cahil,
Yəqin ağıllanar bir gün o qafil.
Hər gün allahıma rica edirəm,
Vətən dinclik tapsın, dua edirəm.

Qəlbən biət edək allahımıza,
Şübhəmiz olmasın sabahımıza.
Dincliklə yaşayaq, sülhlə yaşayaq,
Bir də həddimizi bilək, aşmayaq.

Çoxdur yaradanın möcüzələri,
Görünmür..., görünür işi, hünəri.

* * *

(müharibənin birinci günü)

Payız məni eşit, yağışım yağma,
Arazım sən dayan, Ana Kür axma.
Səfə düzülsünlər şanlı igidlər...,
Ehtiram bildirək, duysun şəhidlər.

Bu nə bəxtəvərlik…, başladı döyüş,
Göz yaşı içində qucaqlaş, öpüş.
Sanki bayram idi, sanki toy idi,
Bu bir "dirilmə"ydi, təzə "boy" idi.

Susuz qalmış balıq çaya atıldı?!
Böyük-kiçik coşdu, qaşlar çatıldı...
Dərindən alırıq nəfəsimizi,
Allah yetirəcək nəsibimizi.

Komandan əmriylə səfərbər olduq,
Allahın izniylə yerbəyer olduq.

Möhnətlə çatmışıq biz bu şadlığa,
İnşallah, çatarıq tam azadlığa.

Qürurla çəkirik nəfəsimizi,
Çox şükür..., alarıq nəsibimizi.

* * *

(müharibənin ikinci günü)

Yağışlar səngimir, bu payız çoşub,
Bir azca özünə külək də qoşub.
Yəqin ki, Həkəri əsib-coşacaq,
Bərgüşad da selin ona qoşacaq.

Bu nə bəxtəvərlik…, ikinci gündü,
Xalq özünə gəlib, xeyli öyündü.
Döyüşlər qızışıb, vüsət alıbdı…,
Düşmənin canına qorxu salıbdı.

Döyüş asan deyil, o bir sənətdir,
Namusdur, qeyrətdir, bir cəsarətdir.
Döyüş canda olur, o qandan gəlir,
Ananın südündən, atadan gəlir.

Geriyə alındı altı kəndimiz,
Özün döğruldurdu döyüş fəndimiz.
Xalq da qürurlandı bu şücaətə,
Kim cəbhəyə qoşdu, kim ibadətə.

Bu nə bəxtəvərlik…, ikinci gündü,
Xalq özünə gəlib, xeyli öyündü.

* * *

(müharibənin üçüncü günü)

Torpaq tam islanıb yağışdan sonra,
Bağda baş qaldırıb, səpdiyim xora.
Üçüncü həmləydi, üçüncü gündü,
Fərəhləndim, yenə ürək döyündü.

Xəbər gözləyirdik hər gün cəbhədən
Biz də qürurlanaq hərbi töhvədən.
Xoş xəbər istəyir qulaqlarımız,
Düa pıçıldayır dodaqlarımız.

Bir an çəkilmədik, geri gəlmədik,
Yalnız irəliyə, qorxu bilmədik.
Düşmən də çəkinir qırımımızdan,
Yoluğa dönübdü "fil" Ermənistan.

Kəşfiyyat aparır dronlarımız,
İstiqamət alsın qoşunlarımız.
Döyüşən əsgərlər olubdu bütün,
"Əgər şəhid olsam bayrağa bükün."

Xəbər gözləyirdik hər gün cəbhədən,
Biz də qürurlanaq hərbi töhfədən.

* * *

(müharibənin dördüncü günü)

Narın yağış yağır ulu torpağa,
elə xoş gəlir ki, bu səs qulağa.
Sanki yırğalanır isti nənnimiz,
bizə layla deyir ipək nənəmiz.

Tələsir elə bil, bir yağış yağır…,
çölün iliyinə, rişəyə axır.
Atəşkəs, sülh işi tamam bitibdi,
vətən müharibə elan edibdi.

Hərdən xatırlayıb, düşünüb dərin,
dadın çıxardıram həmin günlərin.
Bitib -tükənmirdi nigaranlığım,
hayıf, çoxdan bitib şux cavanlığım.

Dünyanı lərzəyə salmışdı vətən,
hər kəs məmnun idi bu üstünlükdən.
Bilindi düşmənin çarəsizliyi,
dadına çatmırdı fəndi, kələyi.

Hərdən xatırlayıb, düşünüb dərin,
Dadın çıxardıram həmin günlərin.

* * *

(müharibənin beşinci günü)

Yağışlar səngiyib, açılıb hava,
Beşcə gün keçibdir, qızışıb dava.
Düşmən hədəf alıb dinc əhalini,
Onlar öldürdülər cavan Şahini.

Zabil, Müzəffər də həlak oldular,
Ordumuz birə beş qisas aldılar.
Mürşüd, Sàmir adlı ata- bala da,
Haqqa qovuşdular, döndülər oda.

O oddur, yandırdı düşmənimizi,
Məşələ çevirdi el şənimizi.

Tərtərdə bu evin söndüsə şamı,
İntiqam bürüdü Azərbaycanı.

Amalımız oldu intiqam hissi,
Şəhidlik bəzədi sərt üzümüzü.
Ölümdən qorxmadıq, üstünə getdik,
Ölümsüzlük kimi şərəfə yetdik.

Hardasa bir evin söndüsə şamı,
İntiqam bürüdü Azərbaycanı.

* * *

(müharibənin VI və VII günü)

Nəmişli, günəşli payız günüdür,
Buludlar payızın tərənnümüdür.
Aydınlıq səmada üzür buludlar,
İstirahət edir, gəzir buludlar.

Intizar işində, nigaran idik,
Alınmışdı çoxlu yüksəklik, gədik.
On beş kənd alındı altıca gündə,
Ordu sözün dedi həftə içində.

Əks-hücum başladı..., yeddi gün sonra,
Düşmən Madagizdə düşmüşdü zora.
Silah-sursatını qoyub, qaçmışdı,
Bizə Suqovuşan qucaq açmışdı.

Dərin yarağanlar, seyrək meşəlik,
Axar çay, durğun göl - nadir gözəllik.
Dəyərdir torpaq da, çınqıl da, daş da,
Bu istək yaşayır hər vətəndaşda.

Düşmən silahını atıb qaçmışdı,
Bizə Suqovuşan qucaq açmışdı.

* * *

Müharibənin VIII günü, Cəbrayılın azadlığa qovuşmasına (04.10.2020) həsr olunur.

Payızın nə gözəl gecəsi olur...,
Qızıl gülün şehli qönçəsi olur.
Döyüşün səsinə düşmən ayıldı,
"Soyuq duş" almışdı, təkrar bayıldı.

Cəbrayıl alınıb..., indi Tuğ, Hadrut,
Şüşada sürünür hamilə bulud.
Darmadağın olub "Ohanyan xətti",
Kara gəlmir hiylə, hayların cəddi.

Ordumuz yönəlib cənuba doğru,
Qarşısına çıxdı bir qonşu "oğru".
Hər cür kəramət var liderimizdə,
Haqqı-sayı çoxdur üzərimizdə.

Bəzən işə salır dəmir məntiqi,
Dəmir yumruq kimi edir tətbiqi.
Əğyar gerilədi, hücum böyüdü,
Zəngilan, Qubadlı, Laçın sevindi.

Cəbrayıl alınıb, qalır Tuğ, Hadrud,
Şuşada sürünür hamilə bulud.

* * *

Müharibənin XXI günü, Füzulinin azadlığa qovuşmasına (17.10.2020) həsr olunur.

Hər payız göstərir təbiət üzün
Gün-gün dəyişdirir halın, gündüzün.
İnsanlar dəyişir geyim-kecimi,
Oğlanlar göndərir qıza elçini.

"Füzuli" payızı il-il özlədi,
Elindən təbəssüm, gülüş gözlədi.
Tarixi günlərdi, müharibəydi...,
Bir əsgər qorxmurdu, çox qəribəydi.

Həmləylə yarıldı "Ohanyan xətti",
Fərarilik etdi canlı hay səddi.
Füzuli alındı bu həmlələrlə,
Hay keçinə bilmir ta hiylələrlə.

Roberti, Serjiki yalanlar yıxdı,
"Yenilməz əsgərlər" fərari çıxdı.
Nooldu Paşinyan?! Nooldu Serjik?!
Fərari gizləyir hər dəlmə-deşik.

Füzuli bizimdir, geri alınıb,
Hay ordusu bərbad günə salınıb.

* * *

Müharibənin XXVI günü şəhid olmuş milli qəhrəman, polkovnik Ş.Həmidova həsr olunur.

Sozalıb, can çəkir payız günəşi,
Xoş ovqat yaratmır solğun şöləsi.

Elə bil üstümə "it hürüb" bu gün,
Qayaya çırpılır hər söz külüngüm.

Yolsuzluq duyulur, nəs gəldi səhər,
Hər yana yayıldı həmin bəd xəbər.
Minamyot yağışı tutub dörd yanın,
Vətənim itirib öz qəhrəmanın.

Polkovnik Həmidov, qorxmaz igidim,
"Aprel" qəhrəmanım, payız şəhidim.
Milli qəhrəmandı, yenə ucaldı,
Şəhid zirvəsində yerini aldı.

Şəhidlər büründü bayrağa, çöndü,
Bu xalq bütövləşdi, millətə döndü.
Dünya ədalətin qoruyammadı,
Ordumuz alıbdı indi bu adı.

Şəhidlər büründü bayrağa, çöndü,
Bu xalq bütövləşdi, millətə döndü.

* * *

Zəngilanın azadlığa qovuşmasına
(20.10.2020) həsr olunur.

Qızıl Payız bizim Qızıl dövrümüz,
Payızda boyandı nura ömrümüz.
20 oktyabr-nə gözəl gündür,
Bu gün elimizdə toydur, düyündür.

Hər gün gözləyirdik adı çəkilsin,
Zəngilanlıların çöhrəsi gülsün.

Düşmənlər rədd olsun, diyarımızdan,
Çin olan arzumuz keçir payızdan.

Qəlbim iftxarla dolub-boşalır,
Adımız-sanımız gün-gün ucalır.
Ağıllı kəndimiz çatıbdır başa,
Pis gözə çöp düşsün, nəzərdən haşa.

Ömrümün ən gözəl, oğlan çağında
On il yaşamışam mən Zəngilanda.
Sevimli balası olur ananın,
Dilbər guşəsidir Azərbaycanın.

20 oktyabr - nə gözəl gündür,
Azaddır Zəngilan, toydur, düyündür.

* * *

Dogma kəndim Kürd Mahruzlunun azadlığa qovuşduğu günə (23.10.2020) həsr olunur.

Hərdən uşaq dövrü, bizim Gəyəndə,
mənə gülərdilər digildəyəndə.
İndi qollarımı açıb yanıma,
dönmək istəyirəm həmin anıma.

Məni qınasınlar, qoy qınadıqca,
mən də ləzzət alım hey oynadıqca.
Xudayar[1] oxusun həm də bir ağız,
nə gözəl fəsilmiş bu Qızıl Payız.

[1] *"Vətən yaxşıdır" mahnısını oxuyan şəhidimiz Xuda yar Yusifzadə nəzərdə tutulur.*

Düşün, bir il öncə arzumuz nəydi,
bir xəbər eşitdik dünyaya dəydi.
Bu da bizim kənddir, geri alınıb,
Düşmən pis gündədir, bəndə salınıb.

Mövludun mübarək, ey ana vətən,
ellərin qurtulub dərddən, ələmdən.
Sən ey doğma yurdum, gəncliyim, canım,
sənə qucaq açıb Azərbaycanım.

Azad kəndlər kimi dirçələcəksən,
Şanlı bir kənd olub, yüksələcəksən.

* * *

Qubadlının azadlığa qovuşmasına
(25.10.2020) həsr olunur.

Başlayıb payızın gahgir anları,
Gah günəş görünür, gah leysanları.
Ən çox da gecələr.... gizlincə yağır,
Hava xoş xəbər tək ruhuma axır.

Xocalıda olduq aciz və həssas,
Davada alındı ikiqat qisas.
Baxıb ordumuza, sərkərdəmizə,
Öyünürük, çıxdıq safa, təmizə.

Gözəl bir gün idi, yenə hücum var,
Yenilməz ordumuz, igid gəncim var.
Yusifov dırmaşdı, bax ürəyinə,
İlk bayrağı sancdı xaç dirəyinə.

Əsgərlər döyüşdə aslana döndü,
Onların hər biri dastana döndü.
Düşmən ta can verir, əliyalındı,
Qubadlı bizimdir, geri alındı.

Bir dəniz pişiyi, o kamikadze,
Vətən fədaisin qəlblərə yaz, de.
"Kamikadze" deyə ayaması xoş,
Həvəslə danışır, anlaması xoş.

Düşmən ta can verir, əliyalındı,
Qubadlı bizimdir, geri alındı.

* * *

Şuşanın azadlığa qovuşmasına (08.11.2020) həsr olunur.

Qızıl payız günü, gözəl gecəydi,
Bir xəbər eşitdik, lap möcüzəydi.
Dünya gözəlləşib, sığdı gözümə,
Bir nur, bir təbəssüm qondu üzümə.

İtirsək də ömrün otuz ilini,
Biz sonunda tapdıq haqqın dilini.
Közərən lampaydı, sönürdü ümid,
İntihar ipinə dönürdü ümid.

Güclü olmalısan hesablaşsınlar,
Bağlı qapıları bir-bir açsınlar.
44 günlük döyüş döndü tarixə,
Utanc günlərimiz keçdi arxivə.

Şuşa hərb elminin özəyi oldu,
Əlbəyaxa döyüş "muzeyi" oldu.
Düşmən can çəkişir, əliyalındı,
Qarabağ bizimdir, Şuşa alındı.

Behiştim, cənnətim, Şuşam, azadsan
Dirçəl görəcəksən, necə abadsan.

* * *

Sənin intizarın məni çox üzdü,
Zindana dönmüşdü hər ilim Şuşa.
Biz sadəlövh çıxdıq, düşmən çoxüzlü,
Nə üzüm qalmışdı, nə dilim Şuşa.

Sağaldı vətənin qarayarası,
Ağardı çöhrəmin suçu, qarası.
Ey Azərbaycanımın şirin balası,
Şəngülüm, şüngülüm, məngülüm Şuşa.

Əsil yaraşıqsan söz ahəngimə,
Şahidlik etmisən əzəl sevgimə,
Yerin soyuq olub, gəl gir köksümə,
Bəh-bəhim, cəh-cəhim, bülbülüm Şuşa.

Ətrafa baxırsan şəldi-şəvəldi,
Sənin şöhrətinin dövranı gəldi.
Bizsiz son payızdı, bu son xəzəldi
Barım-bərəkətim, sünbülüm Şuşa.

Ağaverdi sevən gözəl diyarsan,
Qonağın olacam, uğurlayarsan.
Qubadlı elinə yola salarsan,
Eşqim, məhəbbətim, sevgilim Şuşa.

* * *

Şuşa sən azadsan, ey gözəl diyar,
Şuşa sən azadsan, azad, bəxtiyar.
İşığın çəkilib, suyun çəkilib,
Məqbərən tikilib, güllər əkilib.

Yolların döşənib asfalt qatına,
Məscidlər bəzənir Allah adına.
Qulağı oxşayır bulağın səsi,
Xoş zümzümə olub Xan şikəstəsi.

Xarı bülbül çıxlb Cıdır düzünə,
Oradan naz satır bu yer üzünə.
Bəxtiyar günlərin gözləyir səni,
Dirçəliş bürüyüb qalib ölkəmi.

Ötən gecə gözəl, bu gündüz gözəl,
Yer xalıya dönüb, rəngbərəng xəzəl.
Düşmənlər xar olub, ötürür köksün,
Bu "ayna"da görür eybəcər əksin.

Düşmən dağıdıcı, yırtıcı olub,
İblisin, şeytanın baş tacı olub.
Daha sakinlərin köçkün deyillər,
Çox şad -xürrəmdirlər, üzgün deyillər.

"Bir yandan boşalır, bir yandan dolur",
Dünya Şuşamızın heyranı olur.
Ordumuz alıbdı düşməndən öcün,
El-oba düşünür qayıdış köçün.

* * *

Ağdamın azad olunduğu günə (20.11. 2020) həsr olunur.

Bir gün də yazılıb səadətimdən,
Dəyərlidir, keçmir ölüm-itimdən.
Ağdamın ağ günü düşdü payıza,
Şükür, payızımız dönübdü yaza.

Qanı tökülmədi əsgərimizin,
Üstün dəyəridir zəfərimizin.
Düşmən kişi olar, bilərsən başdan,
Biz cana doymuşuq hayla savaşdan.

Ağzı köpüklənir, çıldırmış diri,
Nə göydə bənd alır, nə görmür yeri.
Qəbul edə bilmir məğlubiyyətin,
Qəzəbin görəcək əbədiyyətin.

Çörək muzeyinin divarlarında,
Şər üzü görünür barbarların da.
Ağdam diz üstədir, dirçəlir boyu,
Bununla tanınır millətin soyu.

Qanı tökülmədi əsgərimizin
Üstün dəyəridir zəfərimizin.

* * *

Kəlbəcərin işğaldan azad olunduğu günə (25.11.2020) həsr olunur.

Kəlbəcər dağların duman almışdı,
Ümidlər qırılıb, güman qalmışdı.

Düşmən kef çəkirdi cənnət məkanda,
Hay mifi məhv oldu 44 təkanda.

Döyüşsüz alındı doğma Kəlbəcər,
Qınına çəkildi o hay hiyləgər.
Elə günə düşüb, başın itirib,
Tamahı özünə ziyan gətirib.

Kəlbəcər işığı bərq vurur indi,
Bax, burdan bilinir, bu yurd kimindi?!
Az zaman içində yollar çəkilib,
Ömər aşırımı..., gör kimlər gəlib.?!

Aş(ı)rımı keçəmməz ta hay dığası,
Qayıdıb bu yurdun əsil ağası.
Bazara çıxıbdı Kəlbəcər balı,
Bəxtiyarlıq sarıb eli, mahalı.

Düşmən kef çəkirdi cənnət məkanda,
Hay mifi dağıldı 44 təkanda.

* * *

Fürsətin fötəmi verərdi düşmən,
Zalım da var zalım..., zalım Kəlbəcər.
Otuz il hüsnünü gizlədi məndən,
Durumum Ağdamdı, halım Kəlbəcər.

Bir kimsə düşməsin dara, çətinə,
Kaş hamı qovuşsun səadətinə.
Bacımoğlu yetdi şəhadətinə,
Sükutum Füzuli, lalım Kəlbəcər.

Duyğusal olmuşam, gözüm nəmlidir,
Xəyalım dağınıq, fikrim qəmlidir.
Qarabağ alınıb, bu önəmlidir,
Könlüm Şuşadırsa, qolum Kəlbəcər.

Şükür yaradanın səxavətinə,
Layiqik ilahi məhəbbətinə.
Vurğunam yurdumun təbiətinə,
Yağışım Laçındır, dolum Kəlbəcər.

Dərindir dərəsi, şişdir dikləri,
Saymaqla qurtarmaz özəllikləri.
Mən necə ayırım gözəllikləri,
Sağım Zəngilandır, solum Kəlbəcər.

Əcəb seyrangahdır meşəsi, dağı,
Qızıldır, gümüşdür münbit torpağı,
Odur dalğalanır üç rəng bayrağı,
Arım Xankəndidir, balım Kəlbəcər.

Bitdi, otuz illik ayrılıq, həsrət,
Çoxillik arzum var, edim səyahət.
Ürəyimin yükü sevgi, məhəbbət,
Keçdim Cəbrayıldan, yolum Kəlbəcər.

Soyuq dağ mehində qoy əsim..., əsim,
Dağında, düzündə bitməz həvəsim.
Murovu gəzməyə yetməz nəfəsim,
Gedim Qubadlıda qalım, Kəlbəcər.

25.11.2020

* * *

Laçının işğaldan azad olunduğu günə (01.12.2020) həsr olunur.

Düşmən yurd elədi laçın yuvasın,
Dağlar yadırğadı elin, obasın.
Əsdi 44 günlük payız küləyi,
Qısdı quyruğunu şeytan mələyi.

Qüdrətli ordumuz qüdrət göstərdi,
Bu nadir töhfədi, ali hünərdi.
Camaat axışır yurdun görməyə,
Həsrətə, hicrana qaysaq hörməyə.

Tikilir, qurulur, çatıb zamanı,
Ovçular kəndində hava limanı.
Tikilir Kəlbəcər-Laçın tuneli,
Yol qovuşduracaq hər iki eli.

Ölümsüz-itimsiz alındı Laçın,
Bir əsgər anası yolmadı saçın.
İnamlı bir lider, imanlı dövlət,
Zəfərə yüksəldi bu şan, bu şöhrət.

Camaat axışır yurdun görməyə,
Həsrətə, hicrana qaysaq hörməyə.

* * *

Dərdinlə yaşadım ağlım kəsəndən,
Ey ulu, müqəddəs Vətən, ey Vətən.
Heç xoşum gəlməzdi əlin üzəndən,
Ey aldığım nəfəs Vətən, ey Vətən.

Qarabağ otuz il işğal yaşadı,
Bakı və Ankara indi qoşadı.
Düşmənin çabası daha boşadı,
Əsgərindir hər kəs Vətən, ey Vətən.

Mənim düşmən qədər cəncəlim yoxdur,
Sərhəd qoruyuram, əcələm yoxdur,
Özümü qorumaq macalım yoxdur,
Bu Vətən bölünməz Vətən, ey Vətən.

Vətənim ağrısa, ağrıyıram mən,
Ağrıyan yarasın sarıyıram mən,
İndi vətənimi qoruyuram mən,
Bayrağın yenilməz Vətən, ey Vətən.

Müzəffər əsgərəm, keşiyindəyəm,
Doğma qucağında, beşiyimdəyəm.
Elə bil evimdə, eşiyimdəyəm,
Sırtın ələ gəlməz Vətən, ey Vətən.

Uğrunda şəhidlik şərəfim olsun,
Uca allah haqlı tərəfim olsun.
Ağa Aqil vətən görəvin olsun,
Son fəryadım, son səs: Vətən, ey Vətən.

MÜNDƏRİCAT

ŞAİR DÜNYASI 3

ZƏFƏR DUYĞULARI

BİR TƏKAMÜL YOLU KEÇDİ BU ƏSGƏR..... 20
İGİDİN EŞQİ 21
KOMANDAN VAR OLSUN, VƏTƏN YAŞASIN..... 22
EY CILIZ ADAMLAR 23
44 GÜNLÜK ZƏFƏR 24
LALƏZARLIQ..... 25
VIRAN OLMUŞ VARLI KƏNDİM 26
KÖNÜL DOSTUM, GEDƏK ƏFƏNDİLƏRƏ..... 28
YAŞA, SƏN EY FATEH 31
MÜJDƏMİZ XANKƏNDİ, MÜJDƏMİZ ŞUŞA 32
ŞƏHİD ƏSGƏRİN MƏKTUBU 35
SEVİNC GÖZ YAŞLARI 36
ŞƏR ÇARÇILARI 37
ZƏNGƏZUR DƏHLİZİNDƏ 41
O GÜN BU GÜNDÜ 42
ŞƏHİD İGİDİM 43
100 İLƏ QALDI 44
VƏTƏN SAĞ OLSUN 45
ALİ BAŞ KOMANDANA..... 47
BU XƏZƏLLİ PAYIZ..... 50
ŞOTLANLININ GÖBƏYİNDƏ YER ALDIM..... 52
QAN AĞLAYIR ERMƏNİSTAN 53
ERMƏNİDİR 53
ÖZÜNLƏ GÖTÜR..... 55
DÜNYANIN DADINI ÇIXARAQ 57
KİŞİ FƏRD OLAR 58

«DƏMİR YUMRUQ» 59
EY İGİDİM, EY ŞƏHİDİM 60
2 7 8 3 ŞƏHİD 62
ÖZÜM QƏRİBƏM *(və ya 27 sentyabr)* 64
EVİMİN DİVARIN MİNAMYOT DEŞİB 65
MƏNİM DÜNYAM 67

İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN ÖNCƏ YAZILANLAR

MƏKTƏBLİNİN ARZUSU 69
QAÇQIN ANA 70
İSTƏMİR Kİ 73
ƏCƏLİN GÖZÜ MƏNDƏDİR 73
SARIKÖYNƏK YOX İDİ 74
MƏNDƏ SEVMƏK ÜÇÜN ÜRƏK QALMAYIB 75
NOVRUZDA 77
MƏNİM GECƏLƏRİM 77
BU SƏNİN TƏRZİN 78
MƏN AZADLIQ QİTƏSİYƏM 79
DAĞLAR QIZINI 80
SƏNİ TAPMIRAM 81
DƏYƏRLİ OĞLUM 82
XOŞNİYYƏTLİLİK 83
KABUS YUXULAR 84
QORXDUM Kİ... 85
MƏN ÖZÜMƏ MƏZAR TİKDİM 86
ƏSİRLİKDƏN GƏLƏN ŞEİR 87
BAĞIŞLA YURD, BAĞIŞLA EL 89
AMAN VER, ƏCƏL 90
ARZULARDAN XOŞUM GƏLMİR 92
AĞIRLAŞIR ÖMÜR ŞƏLƏM 93
SƏNGƏRLƏRİN OD YAXASI 94
İRAQ BİZDƏN 95

ELƏ BİL TALEYİM HƏRBİ ƏSİRDİR..... 97
SƏN DƏ SALAMAT OL, MƏN DƏ SALAMAT 98
SEVGİ DƏRSİ..... 100
KƏND ÜÇÜN BURNUMUN UCU GÖYNƏYİR 101
QƏND DƏ DAŞIYIR..... 103
BİR MURAD VERİR 104
ƏLİNDƏ QALMIŞAM QOCALIĞIMIN..... 105
VAKSİN BARƏDƏ 106
YAŞIDLARIMIZA XİTAB 108

POEMALAR

OZAN OLDU 110
GÖZƏLDİ.....115
MÜHARİBƏ VƏ MƏHƏBBƏT 120
PAYIZ ETÜDLƏRİ..... 132

Müəlliflə əlaqə:
055-580-09-39 / 070-580-09-39

Korrektor: A.V.Əiyeva
Dizayner və səhifələyici: Tünzalə Tağıyeva

Çapa imzalanmışdır: 25.04.2022
Kağız formatı: 60x84 1/16
Həcmi: 8 ç.v.
Sifariş: 53
Tiraj: 500

“Gənclik” nəşriyyatında nəşrə hazırlanmış və
ofset üsulu ilə çap edilmişdir.